
HƏSƏN SƏFFAR
NƏFS
TƏHLÜKƏ
MƏNBƏYİDİR
BAKI-2003

**HƏSƏN SƏFFAR**

# NƏFS TƏHLÜKƏ MƏNBƏYİDİR

**BAKI - 2003**

«Hidayət çırağı» mədəni-maarifçilik fondu tərcümə heyəti

Tərcümə edən: Zaur Sadıqov

Həsən Səffar, «Nəfs təhlükə mənbəyidir» Bakı, «Qələm» - 2003, 80 səh.

Kitabda nəfs və onunla bağlı olan məsələlər, əql, onun rolu və digər bununla bağlı mövzular, doğru yolun təminatı haqqında danışılmışdır. Həmçinin kitabda mövzularla bağlı olan Qurani-Kərim ayələri, Peyğəmbər (s) və İmamlarımızdan olan hədislər göstərilmişdir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

S $\frac{0504000000-528}{N-098-2003}$ Qrifli nəşr

**DK-452/d**

© «QƏLƏM», 2003

# MÜQƏDDİMƏ

İnsan öz nəfsini bəsləyərək maddi həyatının inkişafı uğrunda bütün imkanlarını sərf etməyə çalışır. Bu gərgin cəhdlər və zəhmətlər nəticəsində artıq mövcud zamanda maddi həyatın bütün sahələri müstəqil inkişafa istiqamət almaqdadır. Yeyinti sənayesi sahəsində əkinçilik, heyvandarlıq, balıqçılıq və müxtəlif növ qida məhsulları istehsal edən zavodların mövcud olması, səhiyyə sahəsində yüksək səviyyəli universitetlər, xəstəxanalar, tədqiqat və araşdırma mərkəzlərinin açılması, məişət, geyim və həmçinin digər sahələrdə böyük inkişaf əks olunmaqdadır. Eyni zamanda əql və təfəkkür sahəsində də insanların müəyyən inkişafı nəzərə çarpmaqla bu gün artıq bəşər övladının elmin sirlərini və kainatın məchul qalmış məsələlərini kəşf edib öyrənmək istiqamətində yüksək nailiyyətləri mövcuddur. Demək olar ki, elmin hər bir sahəsində özünəməxsus ixtisaslar elmi-tədqiqat institutları vardır. Zamanın tələbi ilə inkişaf edən məktəblər, universitetlər, tədqiqat mərkəzləri, akademiyalar, konfranslar, elmi jurnallar, həmçinin yeni-yeni kəşflər, ixtiralar da bu sahənin yüksək nailiyyətlərinin göstəricisidir. Lakin təəssüflər olsun ki, insanlar sözü gedən sahələrdən fərqli olaraq, öz mənəvi, ruhi və nəfsi sahəyə biganə yanaşmışlar. Hətta bu sahə ilə bağlı olan psixologiya elmi daha çox maddi tərəfə yönələrək nəfsin və ruhun dərinliklərindən qəflətdə qalmışdır. Demək olar ki, bu sahə insanların ən zəif və ən az diqqət yetirdikləri tərəfidir. Qeyd edək ki, ilahi dinlərdə digər sahələrdən fərqli olaraq bu sahəyə daha diqqətlə yanaşıldığı və məhz bu sahənin inkişafı əsas

hədəf kimi nəzərdə tutulduğu aydın şəkildə özünü göstərir. Bəşər övladının bu kimi məsələyə son dərəcə nisbi və qeyri-ciddi yanaşdığından Allah-təala müqəddəs kitabı Qurani-Kərimdə Həzrət Rəsulullah (s)-in hədəflərindən danışarkən nəfsi mənəvi xəstəliklərdən, çirkablardan təmizləmə hədəfini ön plana çəkmişdir. Belə ki, Ulu Tanrı «Cümə» surəsinin 2-ci ayəsində buyurur:

هُوَ الَّذِي بَعَثَ فِي الْأُمِّيِّينَ رَسُولًا مِنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِنْ كَانُوا مِنْ قَبْلُ لَفِي ضَلَالٍ مُبِينٍ

***«(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümumi ərəblərə özlərindən peyğəmbər göndərən Odur. (Bu Peyğəmbər) əvvəllər haqq yoldan açıq-aşkar azsalar da, onlara (Allahın) ayələrini oxuyar, onları (günahlardan, mənəvi çirkabdan) təmizləyər, onlara Kitabı və hikməti (Quranı və şəriəti) öyrədər».***

Həmçinin Həzrət Peyğəmbər (s) ruhu mənəviyyatı yüksəltməyi, kamilləşdirməyi, nəfsi islah etməyi özü üçün ən başlıca hədəf və ən məsuliyyətli vəzifə hesab edirdi. Çünki insanın əxlaqı və davranışları məhz bununla bağlıdır. O Həzrət məşhur hədislərindən birində belə buyurmuşdur: **«Mən əxlaqi dəyərləri tamamlamaq üçün göndərilmişəm».** Bu səbəbdən İslam dini olduqca zəngin mənəvi sərvətlərə və tərbiyəvi ruhi xəzinələrə malikdir.

Maddiyyatın aldadıcı həzlərinə uyaraq əxlaqsızlığa düçar olmuş, nəfsi istəklərinin təsirinə məruz qalmış dövrün cəmiyyəti daxilində həlakedici bir boşluqla üzləşməkdədir. Nəfsin dərinliyinə varıb ruhunun incəliklərini kəşf etməyə gəldikdə isə o, böyük etinasızlıq göstərir.

Hazırda bəşəriyyətin məruz qaldığı bütün faciələr, təcavüzkarlıqlar, irqi ayrı seçkilik, yoxsulluq, geniş yayılmış mənfur cinayətlər, əxlaqi pozğunluqlar və insan haqlarının tapdanması məhz mənəvi boşluğun və nəfsi azğınlıqların nəticəsidir. Beləliklə, insanlar İslamın mənəvi sərvətlərinə və əxlaqi xəzinələrinə ötən əsrlərə nisbətən bu gün daha çox möhtacdırlar. Bu məsələdə isə əsas məsuliyyət müsəlmanların üzərinə düşür və bu xəzinələri məhz onlar üzə çıxarıb bütün dünyaya tanıtdırmalıdırlar. Lakin təəssüf ki, bu gün əksər müsəlmanlar İslamın dəyərlərindən, şəriət hökmlərindən uzaq düşmüş və hətta İslamın gözəlliklərindən, hikmətli bilgilərindən qafil olmaqda və onları inkar etməkdə demək olar ki, digərləri (yəni, qeyri-müsəlmanlar) ilə eyni səviyyəyə enmişlər. Lakin məlumdur ki, digərləri kimi qeyd etdiyimiz tərəf bir çox istiqamətdə - iqtisadi inkişaf baxımından müsəlmanlardan önə keçmişlər. Bu səbəbdən, öz nəsim küləyinin lətafətini müsəlmanlara bəxş edən yeni dini oyanış və dirçəliş mərkəzləri İslam maarifçiliyinin və yayımında ruhi sahəyə, mənəviyyata xüsusi diqqət yetirməlidir.

*Əziz oxucu! Qarşıdakı bu müxtəsər sətirlər, mənəvi aləmə xüsusi diqqətin artırılması istiqamətində aparılan təbliğatlara şərik olmağımın kiçik bir cəhdidir. Qeyd edim ki, bu yazılar müxtəlif vaxtlarda söylədiyim mühazirə və hədislər toplusu olaraq kaset vasitəsilə müsəlmanlar arasında geniş yayımdan sonra böyük marağa səbəb olduğundan bəzi mömin qardaşları, bu mülahizələri toplayıb üzərində bir qədər işlədikdən sonra kitab şəklində də təqdim etməyə şövq etmişdir. Hazırda isə üzərində aparılan yeni düzəlişlərdən sonra bu kitabı əziz oxuculara təqdim edir və bəzi cümlələr xitabə üslubunda yazıldığı üçün sizlərdən üzr istəyirəm.*

*Allah-təalaya (acizana halda) yalvarıram ki, məni bu yazıların, hədislərin təsiri ilə haqqı dərk edənlərdən və yüksək mənəviyyata yiyələnənlərdən etsin. Həmçinin, Ulu Yaradandan bu kitabı ixlaslı bir əməl kimi qəbul etməsini, eyni zamanda onun möminlər üçün faydalı olmasını diləyirəm.*

*Həmd olsun Allaha və şükr olsun Onun nemətlərinə və bəxş etdiyi müvəffəqiyyətlərə.*

**Müəllif.**
**Hic. 1411.8.1.**

# BİRİNCİ FƏSİL

## TƏHLÜKƏ MƏNBƏYİ

Allah-təala Qurani-Kərimdə buyurmuşdur:

وَنَفْسٍ وَمَا سَوَّاهَا وَنَفْسٍ وَمَا سَوَّاهَا قَدْ أَفْلَحَ مَنْ زَكَّاهَا وَقَدْ خَابَ مَنْ دَسَّاهَا

***«And olsun nəfsə və onu yaradana, sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır».***[1]

İnsan prinsipcə üç əsas ünsürdə fərqlənir. Bu ünsürlərin qarşılıqlı əlaqəsi insanın şəxsiyyətini təşkil edir. Bunlardan birincisi əql, ikincisi nəfs, üçüncüsü isə cismdir. Ruh isə bu ünsürlərin hər üçünə də şamildir. Əvvəlcə bu ünsürlərə bir qədər aydınlıq gətirək. Yəni, ruh, əql və nəfs deyildikdə biz nə başa düşürük? Cismin mənası isə hamıya bəlli olduğu üçün onu izah etməyə heç bir ehtiyac yoxdur. Lakin ruha, əqlə və nəfsə tərif verilməsi xüsusunda filosoflar, kəlam və ideologiya alimləri arasında böyük mübahisələr və ixtilaflar yaranmışdır. İndi isə bu terminlərin tərifləri ilə tanış olaq:

*Ruhun tərifi.*

**Ruh** dedikdə insanı yaşadan, həyat mənbəyi olan bir qüvvə nəzərdə tutulur. Hansı ki, onun cismdən ayrılması ilə

---

[1] «Şəms» surəsi, ayə 7-10.

insanın həyatı bu dünyada sona yetir. Məhz bu səbəbdən də yuxarıda ruhun hər üç ünsürünə (əqlə, nəfsə və cismə) şamil olduğu qeyd edilib. Həyat bəxş edən bir qüvvənin - ruhun olmadığı bir təqdirdə əqldən danışmaq olarmı? Onsuz nəfs öz rolunu oynaya bilərmi? Və ya cisim hərəkət funksiyasını yerinə yetirərmi? Ruhun cismdən xaric olması, onun dünya həyatı ilə vidalaşıb başqa bir aləmə köçməsi deməkdir.

*Əqlin tərifi.*

**Əql** - dedikdə insana haqla batili, xeyirlə şəri və mümkünlə qeyri-mümkünü bir-birindən fərqləndirməyi öyrədən bir nur başa düşülür. Digər şəkildə ifadə etsək, əql idrak, seçim və bilik qüvvəsidir. İnsan məhz onunla dərk edir, seçir və qiymətləndirir.

*Nəfsin tərifi*

**Nəfsə** gəldikdə isə qeyd edək ki, bu məfhumun tərifində filosoflar arasında böyük ixtilaflar yaranmışdır. Hətta bəziləri nəfs haqqında təriflərin sayının qırxa yaxın olduğunu söyləmişlər.

Biz isə nəfsi, insandakı meyllərin, duyğuların və şəhvani hisslərin mərkəzi hesab edirik. Qurani-Kərimdə buna bəzən nəfs və bəzən isə qəlb adı verilmişdir.

## NƏFSLƏ ƏQLİN FƏRQİ

Bütün məsələlər əqllə dərk olunur. Hər bir işin mümkün və ya qeyri-mümkün olduğunu məhz əqllə müəyyən edirik. Birlə biri topladıqda iki, iki ilə ikini topladıqda isə dörd olduğunu, həmçinin bütün bu kimi məsələləri dərk etməyə

qadir olan yeganə qüvvə əqldir. Elm, bilik, ümumiyyətlə, hər bir şeyi layiqincə qiymətləndirmək yalnız əqlin vasitəsilə həyata keçir.

Nəfsdə isə insanın atifələri sevmək və nifrət kimi hisslər yerləşir. Daha dəqiq desək, məhəbbət özünü sevmək, qürur, qorxu və digər bütün hisslərin, atifələrin mənbəyi nəfsdir. Nəticə olaraq, əqllə nəfs arasındakı fərd aydın olur.

Nəfs bu mənada insanın şəxsiyyətində ən təhlükəli tərəf hesab edilir. Çünki o, insan üçün həm xoşbəxtlik, həm də bədbəxtlik mənbəyidir. Allah-təala Qurani-Kərimdə bu həqiqəti belə bəyan etmişdir:

قَدْ أَفْلَحَ مَنْ زَكَّاهَا وَقَدْ خَابَ مَنْ دَسَّاهَا

***«Nəfsini (günahlardan, mənəvi xəstəliklərdən) təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha, mənəvi çirkaba) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır».***

Bəli, şəhvani hisslərin və atifələrin mənbəyi olan nəfs insanı səadətə doğru yönəltməklə yanaşı, onu yolundan azdıraraq bədbəxtliyə və fəsada sürükləməyə qadirdir.

## ƏQLİN ROLU NƏDƏN İBARƏTDİR

Əql insan həyatında nəfs kimi hakim rolunu oynamır. Onun vəzifəsi yalnız dərk etmək və qiymətləndirməkdən ibarətdir. Məsələn, əql işgüzarlıq və fədakarlığın müsbət, tənbəlliyin isə mənfi sifət, həmçinin ədalətin yaxşı, zülmün isə pis əməl olduğunu dərk edir. Lakin nəfs daim özünə mövqe seçərək bütün ixtiyarı ələ almağa cəhd göstərir. Əqlin dediklərini qəbul edib, onlara əməl etmək, yaxud əksinə olaraq başqa bir səmtə yönəlmək nəfsin əlindədir.

Qurani-Kərimdə bu haqda belə buyurulmuşdur:

وَجَحَدُوا بِهَا وَاسْتَيْقَنَتْهَا أَنْفُسُهُمْ ظُلْمًا وَعُلُوًّا ۚ فَانْظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُفْسِدِينَ

***«(Möcüzələrimizin) həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə təkəbbür üzündən onları inkar etdilər».***[1]

İlk öncə əqlləri onlara əsil həqiqəti və vacibliyi göstərsə də, onlar bilə-bilə həmin həqiqətləri inkar etdilər. Buna səbəb isə nəfsi istəklərin, şəhvani hisslərin onlara əqllərinin dediklərinə əməl etməkdə mane olması idi. Başqa bir ayədə isə Allah-təala bu həqiqətə belə işarə etmişdir:

يَا أَهْلَ الْكِتَابِ لِمَ تَلْبِسُونَ الْحَقَّ بِالْبَاطِلِ وَتَكْتُمُونَ الْحَقَّ وَأَنْتُمْ تَعْلَمُونَ

***«Ey kitab əhli, nə üçün bilə-bilə haqqa yalan donu geyindirir və doğrunu gizlədirsiniz?»***[2]

---

[1] «Nəml» surəsi, ayə 14.
[2] «Ali-İmran» surəsi, ayə 71.

Diqqət edin və düşünün! Onlar həqiqəti bilirlər. Əqlləri onlara doğru yolu göstərməyinin müqabilində nəfsi istəkləri və şəhvətləri onları əqlin dediklərindən sapınmağa və əsil həqiqəti gizlətməyə vadar edir. Bundan əlavə, bir çox hədislər və misallarda qeyd edilir ki, əql, hətta, nəfsin əlində aciz bir alətə çevrilə də bilər.

Qəribədir! Əzəmətli bir qüvvə olan əql nəfsin təsiri ilə aciz bir alətə çevrilir. Sanki nəfsi istəklərin fırtınası onu dəryada üzən qayıq kimi müxtəlif səmtlərə sürükləyərək istədiyi vaxt ondan istifadə edər.

## ƏQL NECƏ ƏSİRƏ ÇEVRİLİR

Əvvəlcə əql insana məsləhətini verərək deyir: «Oruc tutmaq çox gözəl əməldir, yaxşı olar ki, onu edəsən». Lakin nəfs insana bu işdə mane olur və şəhvani-hisslər, həvayyi-nəfs onu oruc tutmaqdan yayındırmağa çalışır. Bu halda, orucu pozmaq qərarına gəldikdə, artıq ləziz yeməklər əldə etmək haqda düşünməyə ehtiyacı duyulur. Və bu an yenidən əqlə müraciət edildikdə isə artıq əql müstəqil bir qüvvə kimi deyil, nəfsin əsiri kimi fəaliyyətə başlayır.

Başqa bir misala diqqət yetirək: Əql oğurluğun pis iş olduğunu dərk etsə də, nəfs ona qarşı çıxaraq bu mənfur əməli yerinə yetirməyi qərara alır. Lakin oğurluq etmək üçün dəqiq plan hazırlanmalı olduğundan onu yenə əql həyata keçirərək nəfsin əmrləri ilə hərəkət edən aciz bir alətə çevrilir.

İmam Əli ibn Əbu Talib (ə)-ın bu haqda buyurduğu kəlamları qeyd etmək yerinə düşərdi. O Həzrət buyurmuşdur:

**«Nə çox əqllər həvai-nəfsin hökmranlığı altında əsirə çevrilmişdir».**[1]

**«Əql daha çox şəhvətin şimşəkləri altında məhv olar».**[2]

Digər bir kəlamında isə o Həzrət əqlin, yalnız nəfsi istəklər və şəhvətlərdən xilas olduğu zaman insan həyatında idarəedici rol oynadığına işarə edir:

**«Əql nəfsi istəklərin əsarəti altından çıxdıqda və dünya sevgisindən (dünyanın aldadıcı və müvəqqəti ləzzətlərinə bağlılıqdan) xilas olduqda bunları (söylədiyim bu nəsihətləri, həqiqətləri) təsdiqləyər».**[3]

Həmçinin İmam (ə) şəhvətin əqli parçalamasına da toxunaraq buyurmuşdur: **«Şəhvət hissləri onun (həvayi-nəfsinə aldanmış şəxsin) əqlini parça-parça etmişdir».**[4]

**«Əql həvayi-nəfslə şəhvətin təzyiqi nəticəsində aradan gedər».**[5]

**«Əqlin düşməni həvayi-nəfsdir».**[6]

Beləliklə, məlum olur ki, nəfsin əql üzərində hökmranlıq edib, ondan istənilən kimi yararlanmağa qüdrəti çatır. Onun təhlükəli hesab edilməsi də məhz bu səbəbdəndir. Qurani-Kərimin insanın xoşbəxtliyini, nicatını və uğurunu onun nəfsinin sağlam olması ilə əlaqələndirməsi də məhz bundan irəli gəlir. Bu haqda, Allah-təala «Naziat» surəsinin 40, 41-ci ayələrində buyurmuşdur:

---

[1] «Nəhcül-bəlağə», Qısa və hikmətli kəlamlar bölməsi, 211-ci kəlam.
[2] «Nəhcül-bəlağə. Qısa və hikmətli kəlamlar bölməsi, 219-ci kəlam.
[3] «Nəhcül-bəlağə», 3-cü fəsil.
[4] «Nəhcül-bəlağə», 109-cu xütbə.
[5] «Mizan əl-hikmə», cild 6, səh. 431.
[6] «Mizan əl-hikmə», cild 6, səh. 436.

وَأَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ الْهَوَىٰ فَإِنَّ الْجَنَّةَ هِيَ الْمَأْوَىٰ

***«Amma kim (Qiyamət günü) Rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini (şəhvəti) qadağan etmişsə, həqiqətən onun yurdu Cənnətdir!»***

Elə isə əsas məsələ nəfslə bağlıdır. Nəfsini tərbiyə edib saflaşdıran şəxs böyük uğur qazanar, nicat tapar. Buna görə də, nəfsin tərbiyəsinə, onun təhlükəli xəstəliklərdən nicat tapmasına xüsusi diqqət yetirilməlidir.

## YUNAN MƏNTİQİNİN NÖQSANI

Alimlər məntiq elminə tərif verərək bu elmin insan beynini səhv düşüncədən qoruyan qanunverici bir alət olduğunu bildirmişlər. Həmin fikirlərə əsasən. bu elmin əsas hədəfi xətalardan uzaqlaşmaqla fikirlərə düzəliş etməkdən ibarətdir. Bununla da aydın olur ki, biz yalnız düşünmə qabiliyyətimizi tənzimləməkdə məntiq elminə ehtiyac duyuruq. Qeyd edilən bu fikirlər məşhur alim şeyx Müzəffərin məntiq kitabından götürülmüşdür. Lakin İbn Həzm Əndolosinin fikrinə əsasən, məntiq elmi bütün həqiqətləri araşdıraraq onları batil, mənasız əhəmiyyətsiz məsələlərdən heç bir şübhə qalmadan seçib ayırır.

Maraqlıdır, əsası bəndləri məşhur filosof və Aristotel (e.ə. 384-322) tərəfindən tərtib edilmiş yunan məntiqi həqiqətənmi bu vəzifəni yerinə yetirir?

Bu fikri qətiyyətlə inkar edərək məntiq elminin sadəcə düşünmə prosesinə və təfəkkürün formalarına, növlərinə üstünlük verdiyini qeyd edə bilərik. Bu səbəbdən bu elmə, həmçinin formal məntiq deyilir. Belə ki, məntiq elmi nəfsin

dərinlikləri və onun insan təfəkkürünə psixoloji təsirləri haqda araşdırmalar aparmır.

Görkəmli alim Məhəmməd Təqi Müdərrisi bu haqda olan fikirlərini belə qeyd edir: Məntiq elmini (Yunan məntiqini) ifratçılıq, anarxiya və sofistikanın müqabilində yaranmış insanın düşüncə tərzini formalaşdıran bir vasitə kimi qiymətləndirmək olar. Yəni bu elm fikirlərin mənbəyini araşdırmaqdan daha çox onların bir-biri ilə əlaqəsinə diqqət yetirir. Bu isə bütün səyini rəqəmlərin toplanıb-çıxılmasına sərf edən, lakin onların arxasında gizlənən həqiqətlərə diqqət yetirməyən şəxsin misalına bənzəyir. Aristotelin bu formal məntiqi təfəkkürün mahiyyətinə varmadan, sadəcə onun formalarının (növlərini) öyrənilməsinə əhəmiyyət verməsi ilə insanın daxilindəki mənfi və zəlalətə yönəldici hisslərin (xüsusiyyətlərin), həmçinin bu hisslərin (xüsusiyyətlərin) qarşısında əqlin rolunun unudulmasına bais oldu. Məhz bu səbəbdən, formal məntiq elmi bəşəriyyətin fikri baxımından inkişaf etməsini yetərli şəkildə təmin etməyə nail ola bilmədi.[1]

Bu elmin əsas müddəasında deyilir ki, insanın elmlə bağlı problemi sırf əqli problemdir və düşüncə tərzini tənzimləyən (formalaşdıran) qaydalar təyin etməklə bu problemi həll etmək olar. Lakin həqiqətdə insanın bu sahədəki problemi əqldən daha çox nəfslə bağlıdır. Bu səbəbdən də insanın əqlini düşüncə formalaşdıran qaydalar təyin etməzdən öncə tərzini onun (insanın) nəfsini təhlükəli xəstəliklərdən mühafizə etmək gərəkdir. Çünki insanın nəfsi sağlam olmadıqda onun iradəsinə təsir göstərərək (onu) istəklərinin hərəkət etdiyi istiqamətə yönəldə bilər. Belə olduqda isə insan öz düşünmə

[1] Məhəmməd Təqi Müdərrisi, «Məntiq əl-İslami», səh. 55.

qabiliyətini itirir və həmin an, əlbəttə ki, düşüncə tərzini tənzimləyən qaydaların heç biri ona kömək edə bilmir.[1]

## NƏFSƏ DİQQƏT YETİRMƏYİN ZƏRURİLİYİ

Bəzi insanlar əqllərinin kamilləşməsinə xüsusi diqqət yetirərək müxtəlif məlumatlar və fikirlər əldə etməklə onu gücləndirirlər (zənginləşdirirlər). Digərləri isə cisimlərini bəsləməyə daha çox üstünlük verərək onu daim dadlı təamlar və başqa ləzzətlərlə, rahatlıq gətirən vasitələrlə təmin edirlər. Lakin təəssüflər olsun ki, insanların əksəriyyəti öz nəfslərini unudaraq onu islah etməyə əhəmiyyət vermirlər. Məlumdur ki, nəfs sağlam olmadıqda əqlin və cismin heç bir dəyəri olmaz. Belə ki, nəfs xəstə olduqda əqldən sui-istifadə edər və bununla cismi də uçuruma yuvarlayar.

Keçmiş tarixə və yaxud müasir həyata nəzər yetirdikdə bəzi insanlar əqli və elmi baxımdan yüksək səviyyəyə çatmalarına, dərin biliyə yiyələnmələrinə baxmayaraq, bədbəxtliyin və mənəvi pozğunluğun ən son pilləsinə enmələrinin şahidi olarıq. Bu həqiqətə sübut olaraq İblisi misal gətirmək mümkündür. Onun bu qədər alçalması, bədbəxtliyə düçar olması elminin azlığındanmı baş vermişdir? Əlbəttə ki, xeyir...

İblisin başına gələnlər onun elminin azlığı səbəbi deyil, əksinə o, bu sahədə digərlərindən daha üstün və bizim bilmədiyimiz bir çox şeylərdən xəbərdar olan böyük bir alim idi. Bu halda onun cəzalandırılmasına hansı amilin səbəb olduğu sualı meydana çıxır. Allah-təala bu haqda Qurani-Kərimdə belə xəbər verir:

---

[1] Məhəmməd Təqi Müdərrisi, «Məntiq əl-İslami» səh. 187.

قَالَ مَا مَنَعَكَ أَلَّا تَسْجُدَ إِذْ أَمَرْتُكَ ۖ قَالَ أَنَا خَيْرٌ مِنْهُ خَلَقْتَنِي مِنْ نَارٍ وَخَلَقْتَهُ مِنْ طِينٍ

***«(Allah İblisə:) Mən sənə səcdə etməyi əmr etdikdə buna nə mane oldu? - deyə buyurdu. (İblis:) Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın! - dedi».***[1]

Buradan məlum olur ki, İblisi uçuruma yuvarlayan onun təkəbbürlüyü olmuşdur. Şübhəsiz ki, səbəb təkəbbürlük də əqli deyil, nəfsi xəstəlik olduğundan o, bu məsələdə öz elmindən faydalana bilərdi. O cümlədən azğınlığa və bədbəxtliyə düçar olmuş insanların əksəriyyəti də elmlərinin azlığından deyil, məhz nəfslərinin xəstə olması üzündən bu kimi acı nəticələrlə qarşılaşmışlar.

Burada İmam Əli (ə)-ın gözəl bir kəlamı öz yerini tapır. O Həzrət buyurmuşdur: **«Nəfsini islah etməyən şəxs əqlindən faydalana bilməz».**

Başqa bir kəlamında İmam (a) belə buyurmuşdur:

**«Həvayi-nəfsindən uzaqlaşan şəxsin əqli sağlam olar».**[2]

Nəfsi xəstəliklərin əqlə təsir etməsinə gəldikdə isə o Həzrət buyurmuşdur:

**«Bilin ki, uzun-uzadı arzular əqli aradan aparar...»**[3]

**«İnsanın özünü bəyənməsi onun əqlinə həsəd aparan şeylərdən biridir».**[4]

---

[1] «Əraf» surəsi, ayə 12.
[2] «Mizan əl-hikmə», cild 6, səh. 436.
[3] «Nəhcül-bəlağə», 86-cı xütbə.
[4] «Nəhcül-bəlağə», qısa və hikmətli kəlamlar bölməsi, 212-ci kəlam.

Buradan məlum olur ki, nəfsin islah olunması məsələsinə böyük əhəmiyyət verilməlidir. Çünki nəfs təkəbbürlük, lovğalıq, şöhrətpərəstlik, qorxaqlıq, tənbəllik, kin-küdurət və digər bu kimi xəstəliklərə düçar olarsa, artıq heç bir şey bunun qarşısında fayda verməz. Allah-təala bu haqda Qurani-Kərimdə buyurmuşdur:

سَأَصْرِفُ عَنْ آيَاتِيَ الَّذِينَ يَتَكَبَّرُونَ فِي الْأَرْضِ بِغَيْرِ الْحَقِّ

***«Yer üzündə haqsız yerə təkəbbürlük edənləri ayələrimi anlamaqdan yayındıracağam».***[1]

Yəni onlar nəfsləri təkəbbürlük xəstəliyinə düçar olduğundan iman gətirməyə, hidayət tapmağa belə müvəffəq olmazlar.

Peyğəmbər (s)-ə iman gətirməyənlərin nöqsanı əqllərində, yoxsa elmə yiyələnməməkdə idi? Xeyr, qətiyyətlə bunu inkar edərək onların probleminin nəfslərinin təkəbbürlük kimi çirkin bir xəstəliyə düçar olması və həvai-nəfslərinin onlara hakim kəsilməsi olduğunu qeyd etmək olar.

## NƏFSLƏ BAĞLI ÜZƏRİMİZDƏ OLAN MƏSULİYYƏT

Biz əqlimizi kamilləşdirmək məqsədi ilə onu elm və biliklə təmin etməyə, həmçinin cismimizi bəsləmək, ona müxtəlif həzz və rahatlaşdırıcı vasitələrlə qayğı göstərməyə geniş vaxt ayırırıq. Lakin nəfsimizin islah olunması, onun təhlükəli xəstəliklərdən təmizlənməsi üçün necə, vaxtımızı sərf edirikmi?

---

[1] «Əraf surəsi, ayə 146.

Doğrudur, dünyanın qərb və şərqdəki universitetlərində seçdikləri sahə üzrə təhsil alıb yüksək elmi dərəcəyə yiyələnən insanların əqlləri olduqca iti və güclüdür. Həqiqətən də, mövcud dəqiq texnikalar, daim yenilənən elektron cihazlar icad edən əqllər qarşısında insan özünü bir növ aciz və həqir hiss edir. Nəzər saldıqda elmi və texnoloji sahədə inkişaf etmiş qərbdə möhtəşəm, heyranedici texnikalar istehsal edildiyi müşahidə olunur. Bütün bunlar təbii ki, əqlin bəhrəsidir. Lakin bununla yanaşı, o insanların daxilində müxtəlif nəfsi xəstəliklər və mənfi xislətlər də yaranıb böyüyür və həmin əqlləri və cisimləri bu dünyada bədbəxtliyə, axirətdə isə cəhənnəm oduna sürükləyir.

## SƏHV DÜŞÜNCƏ

Bəzi insanlar elə düşünürlər ki, nəfsin islahı üçün sərf olunan vaxt hədərdir. Məsələn, bəzən, insan (vəfat etmiş) bir möminin dəfn mərasimində iştirak edərkən qəbristanlığa gedərək orada olduğu müddətdə sərf etdiyi vaxtın hədər getdiyini düşünə bilər. Özlüyündə belə işlər bu qədər vaxtı kitab oxumağı və ya mühüm məsələlər üzərində düşünərək əql işlətməyin daha yaxşı olduğunu düşünür. Əlbəttə ki, bu cür fikirləşmək mənasızdır.

Məgər bizim ehtiyacımız (vəzifəmiz) sadəcə əqlimizə fayda vermək və məlumatlar toplayaraq onu gücləndirməkdən ibarətdirmi?

Bəs onda nəfsimiz necə olsun? Onun islahı ilə kim məşğul olmalıdır?

Nəfsimizin xəstəliklərdən təmizlənməsi yolunda sərf etdiyimiz vaxt hədər deyil, əksinə vacib olan bir işdir. İslamda

olan ibadətlərin və bu ibadətlərin şirinliyinin sirri də məhz bu nöqtədə gizlənir. Yəni namaz qılmaq, dua etmək, dəfn mərasimlərində iştirak etmək və özümüzü gündəlik olaraq mühasibə etmək kimi işlərə vaxt ayırmaq nəfsin saflaşmasına xidmət edir.

İnsanın özünün gündəlik mühasibə etməsinin zəruriliyi haqda İmam Kazım (ə) belə buyurmuşdur: **«Hər gün özünü mühasibə etməyən şəxs bizdən deyildir. Belə ki, yaxşı işlər etmişsə, Allahdan onların artırılmasını diləməli və Ona şükr etməli, yaxud pis işlər etmişsə, Allahdan onların bağışlanılmasını istəməli və bu günahlara tövbə etməlidir».**[1]

İnsanın elmi inkişafı, əql və idrak dairəsinin genişliyi ilə nəfsinin sağlamlığı arasında tarazlıq olmadıqda onun gələcəyi üçün böyük bir təhlükə törənər Bu tarazlığı qorumaq üçün isə biz nəfsimizin islahı məsələsinə xüsusi əhəmiyyət verməli və vaxtımızın bir hissəsini onun qeydinə qalmağa sərf etməliyik.

---

[1] «Mizan əl-hikmə» cild 2, səh. 407.

# İKİNCİ FƏSİL

# İSLAM MƏNTİQİNƏ ƏSASƏN NƏFSİN TƏHLÜKƏSİ

## NƏFS PİS İSLƏRƏ VADAR EDƏNDİR

Müxtəlif meylləri və şəhvani hissləri özündə ehtiva edən nəfs təbiətcə insanı daim ləzzətlərə nail olmaq və istəklərini təmin etmək məqsədilə fəsad və azğınlığa doğru sürükləyir. Yəni əgər şəhvani hisslər nəfsə hakim kəsilərsə və insanda da bu hisslərə qarşı çıxan, layiqli müqavimət göstərən iradə və əzmkarlıq qüvvəsi olmazsa, onda şəhvani hisslər onu uçuruma yuvarlamaqla onun gələcəyini, həyatının bütün sahələrini təhlükə qarşısınıda qoymuş olar.

Buna əsasən Londonda nəşr olunan «Əl-həyat» adlı jurnalda nəfsi istəklərinə uyaraq azğınlıq və şərəfsizliyin ən son həddinə enmiş insanı əks etdirən bir məqaləni qeyd etmək olar. Jurnalın miladi təqvimlə 27 yanvar 1991-ci il və müvafiq olaraq hicri-qəməri təqvimi ilə 12 rəcəb 1411-ci il tarixində nəşr edilmiş sayında yazılır:

*Amerika Birləşmiş Ştatlarında yeni nəslin düçar olduğu ictimai və əxlaqi pozğunluğun göstəricilərindən biri də ötən həftə Çikaqo məhkəməsində işi gedən hadisədir. Belə ki, ötən həftə bu məhkəmə prosesində gecə barlarından birində aşnası ilə sərbəst görüşmək üçün öz körpə qızını avtomobilinin yük yerində qoyub getmiş Patrisa adlı gənc ananın azadlıqdan məhrum olunması haqda hökm çıxarılmışdır. İyirmi doqquz yaşlı bu qəddar ana hadisə haqqında verdiyi ifadədə demişdir*

*ki, həmin gün onun gecə barlarından birində aşnası ilə görüşü olub və səkkiz aylıq qızı Ceyniyə dayə tapa bilmədiyindən onu da özü ilə aparmaq məcburiyyətində qalıb. Qeyd edək ki, Ceyni onun keçmiş ərindən olan qızıdır və onlar körpənin dünyaya gəlməsindən 3 ay sonra ayrılmışlar. Bu namussuz qadın özünü günahsız hesab edərək polis şöbəsinda belə demişdi: «Mən başa düşmürəm ki, siz nəyə görə mənə bu şəkildə zülm edirsiniz? Mən ki, qızımı avtomobilin yük yerində xalçanın üzərinə uzatmışdım. Hətta onun yanında radio cihazı da qoymuşdum ki, o musiqi səsi eşidərək sakitlikdən və qaranlıqdan qorxmasın».*

*Ekspertlərin rəyinə əsasən Patrisa körpəsini tam üç saat ərzində orada tənha qoymuşdur. Lakin o özü hər yarım saatdan bir qızına baş çəkdiyini israr edərək deyir: - Tez-tez ayaq yoluna getmək bəhanəsi ilə «dostumdan» icazə alaraq Ceyniya baş çəkirdim. Amma bir neçə dəfədən sonra o bundan şübhələnərək mənə bir daha çıxmaq üçün icazə vermədi.*

*Pitza restoranında işləyən Con Nolandın şahid qismində verdiyi ifadəyə görə o, həmin avtomobilin yanından iki dəfə keçib, lakin uşağın ağladığını eşitsə də, onun yük yerində olması Conun heç ağlına belə gəlməyib. Çikago polisinə telefon vasitəsilə ifadə verən Ricina Cekson isə hadisə haqqında belə deyir: «Öncə yük yerindən gələn bu boğunuq səsi pişik miyoltusuna bənzətdim. Sonra isə avtomobilə bir qədər də yaxınlaşaraq həmin səsi diqqətlə dinlədikdə onun uşaq çığırtısı olduğunu başa düşdüm». Bu xəbəri eşitdikdə dərhal polis əməkdaşları özlərini hadisə yerinə çatdıraraq avtomobilin yük yerini açıb havasızlıq və ağlamaqdan boğulmaq üzrə olan körpəni oradan çıxarır və avtomobili*

*yedəklə cərimə meydanına aparırlar. Bir neçə dəqiqədən sonra Patrisa qızına baş çəkmək üçün avtomobilin dayandığı yerə gəlir. Onu yerində görmədikdə, «qızımı oğurladılar, avtomobilimi oğurladılar» deyə qışqırmağa başlayır. Lakin bu fəryadı çox çəkmir. Yaxınlıqda pusquda dayanmış polislər özlərini yetirib onu yaxalayırlar. Qızının körpələr evinə aparıldığını bildikdə isə Patrisa avtomobili və qızını oğurlamaqda polisləri ittiham etməyə başlayır. Və yalnız polis kapitanının onu öz qızına qarşı etinasızlıq göstərib ölümlə üz-üzə qoyduğu üçün saxlanıldığını dedikdən sonra sakitləşir.*

Budur nəfsin insanı pis işlərə sürükləməsi...

Bu səbəbdən dinimizin bizi mövcud təbiətə malik olan nəfslə ehtiyatlı davranmağa, həmçinin aldadıcı hisslərin qarşısında tab gətirməyimiz, şəhvani istəklərin təsiri altına düşməməyimiz üçün idrak və möhkəm iradə ilə silahlanmağa çağırır.

1.Yusif Peyğəmbər (s) şəhvani hisslərə qarşı mətin və sarsılmaz olmaqda ən çox misal çəkilən, ən gözəl nümunə kimi göstərilən bir şəxsiyyətdir. Lakin bununla belə o da nəfsin təbiətcə pisliklərə sövq edən bir qüvvə olduğunu vurğulayır və onun nəticəsindən qurtulmağın yeganə yolunu təqvalı olmaqda görürdü. Təqva isə İlahi rəhmətin təcəssümüdür.

Allah-təala Qurani-Kərimdə Həzrət Yusif (ə)-in dilindən belə buyurmuşdur:

وَمَا أُبَرِّئُ نَفْسِي ۚ إِنَّ النَّفْسَ لَأَمَّارَةٌ بِالسُّوءِ إِلَّا مَا رَحِمَ رَبِّي ۚ إِنَّ رَبِّي غَفُورٌ رَحِيمٌ

***«Mən özümü təmizə çıxartmıram. Rəbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi əmr edər. Həqiqətən, Rəbbim bağışlayandır, rəhm edəndir!»***[1]

2. İmam Əli (ə) öz nəfsinin təbiətindən, pisliklərə sövqedici olmasından xəbərsizcəsinə, kor-koranə ona inanıb müti olan şəxsin başına gələnlərə işarə edərək buyurmuşdur:

**«Həqiqətən, nəfs insana pislikləri və pozğunluqları əmr edəndir. Ona bel bağlayana xəyanət, tabe olamı həlak edər. Ondan razı qalanı isə pis nəticələrə sürükləyər».**[2]

3. O Həzrət (ə) yenə də buyurmuşdur:

**«Həqiqətən də, bu nəfs (insana) pislikləri əmr edəndir. Ona biganə yanaşanı günahlara doğru sürükləyər».**[3]

4. İnsanın nəfsi onu günahlar toruna salmaq üçün aldadıcı və şirnikləndirici vasitələrdən istifadə edir. Buna görə də insan son dərəcə ayıq və ehtiyyath olmalı, heç zaman nəfsinə aldanmamalı və öz cilovunu şəhvani istəklərin ixtiyarına verməməlidir. Bu haqda İmam Əli (ə) buyurmuşdur:

**«(Ey insan) Həqiqətən sənin nəfsin aldadıcıdır (hiyləgərdir). Əgər ona inanıb etibar etsən, şeytan səni günahlara doğru aparar».**[4]

5. İmam (ə) Malik Əştəri Misirin valisi təyin etdikdən sonra ona yazdığı məktubda belə buyurmuşdur:

**«...Ona əmr edirəm ki, öz nəfsini şəhvani istəklərdən təmizləsin, onun cilovunu çəksin. Həqiqətən, Allahın rəhm etdiyi kimsə istisna olmaqla nəfs (insana) pis işlər görməyi əmr edər».**[5]

---

[1] «Yusif» surəsi, ayə 53.
[2] «Mizan əl-hikmə», cild 10, səh. 130.
[3] «Mizan əl-hikmə», cild 10, səh. 130.
[4] Həmin mənbə.
[5] «Nəhcül-bəlağə», 53-cü məktub.

6. İmam Əli ibn Hüseyn Zeynulabidin (ə) isə tərbiyəvi və hikmətli bir üslubla, münacat və Allah-təalaya acizanə yalvarış dili ilə insana nəfsinin təbiətini tanıtdırır, və onunla ehtiyyatlı davranmağı öyrədir. O Həzrət «Şikayət edənlərin münacatı» adı ilə tanınmış məşhur münacatlarından birində buyurmuşdur:

**«İlahi, pisliklərə əmr edən, günahlara tələsən, qadağan etdiyin işlərə məftun olmuş, qəzəbinə tuş gəlmiş bir nəfsdən sənə şikayət edirəm. O məni xətərli yollara sürükləyər və Sənin yanında ən bədbəxt halda həlak olan şəxsin səviyyəsinə endirər. Nöqsanları çox, arzuları isə sonsuzdur. Ona şər üz verdikdə təşvişə düşər, xeyirlə qarşılaşdıqda isə ona mane olar. Boş və mənasız işlərə, cəlbedici əyləncələrə meylli, bütünlükdə cəhalət və xətalarla (yanlışlıqlarla) doludur. Məni günah etməyə tələsdirər, tövbə etməkdən isə yayındırmağa çalışar».**[1]

7. Tarix boyu bir çox fərdlər və hətta cəmiyyətlər öz nəfslərinin, şirnikləndirici istəklərinin qurbanına çevrilmişlər. Nəhrəvan döyüşündə qətlə yetirilmiş dörd minə yaxın xəvarici[2] bu həqiqətə ən münasib nümunə kimi qeyd etmək olar. Əvvəllər onlar İmam Əli (ə)-ın silahdaşları olmuş, lakin bir anlıq diqqətsizlik və çaşqınlığa yol vermələri nəticəsində şeytan onlara hakim kəsildi və bununla da, onlar öz cilovlarını nəfslərinin ixtiyarına verdilər.

İmam Əli (ə) Nəhrəvan döyüşü baş verən gün xəvariclərin cəsədlərinin yanından ötərkən onlara baxıb buyurdu:

---

[1] «Səhifeyi Səccadiyyə», 2-ci münacat.

[2] Siffin döyüşündə Müaviyyə ibn Əbu Sufyanın hiyləsinə aldanaraq İmam Əli (ə)-ın ordusundan ayrılanlar.

**«Vay halınıza, sizə zərər yetirən, elə şirnikləndirib yolunuzdan azdıran (şey) oldu.**

**İmam (ə)-dan onları şirnikləndirib yollarından azdıran nə oldu? - deyə soruşduqda o Həzrət (ə) belə cavab verdi:**

**- Azdırıcı (qüvvə olan) şeytan və pisliklərə sövq edən nəfs onları arzularla şirnikləndirib yollarından sapındırdı, günah etmələrinə imkan yaratdı, qələbə çalacaqlarına vəd verdi və nəticədə isə onları Cəhənnəm oduna vasil etdi».**[1]

## ƏN BÖYÜK CİHAD NƏFSLƏ EDİLƏN CİHADDIR

Allah-təalanın dünyada insanı mübtəla etdiyi ən böyük və ən çətin imtahanı onun öz nəfsi ilə sınağa çəkilməsidir. İnsanın Allah yanındakı məqamı, hörməti, həmçinin dünyada və axirətdəki gələcəyi onun məhz bu imtahandan müvəffəqiyyət qazanmasından asılıdır. Məhz bu səbəbdən nəfslə mübarizə aparmaq insanın bu həyatda qarşılaşdığı mübarizələrdən ən çətini və təhlükəlisidir.

a) Kimliyindən asılı olmayaraq hər bir insan bu mübarizəyə qatılmaq məcburiyyətindədir. Heç kəsə bu döyüşdən yayınmaq ixtiyarı verilməmişdir. Hətta Peyğəmbərlər, Vəsilər və övliyalar belə bu mübarizədən istisna edilməmişlər. İnsan hər hansı bir yolla digərləri ilə mübarizə aparmaqdan yayınmağı bacarsa da, öz nəfsi ilə mübarizə aparmaqdan heç bir yolla boyun qaçıra bilməz.

b) Bu daimi bir döyüşdür və onun müddəti insanın ömrü qədərdir. Yəni, hər bir insan düşünmə tərzi formalaşdığı andan həyatının sonunadək öz nəfsi ilə mübarizə aparmağa

---

[1] «Nəhcül-bəlağə», Qısa və hikmətli kəlamlar bölməsi, 323-cü kəlam.

məhkumdur. Lakin bəzi insanlar da vardır ki, bütün həyatı boyu bu mübarizədə uğur qazanmalarına baxmayaraq, ömürlərinin son anlarında müvəffəqiyyəti əldən verirlər.

v) Habelə bu mübarizə insan həyatının bütün sahələrini əhatə edir və onun hər bir işinə şamil olur. Onun əhatə dairəsi bütün nahiyələrə, incəliklərədək uzanaraq insanın təfəkkürünə, hissiyatına, əməllərinə, sözlərinə, hətta işarə və sükutuna da müdaxilə edib öz təsirini göstərir. Belə ki, həvayi-nəfs və şəhvani istəklər insanın əqidə və düşüncələrinə, hissetmə və duyma qabiliyyətinə, davranışına və mövqelərinə, həmçinin digərləri ilə əlaqələrinə xələl gətirə bilər.

q) Ən dəhşətlisi isə insanla öz nəfsi arasında olan möhkəm bağlılıq və sıx əlaqədir. İnsana ən yaxın şey nəfsdir. O insanın daxilində yerləşdiyi üçün ondan ayrılmazdır. Həqiqətən düşməni ilə birgə yaşamaq, onunla sıx əlaqədə olmaq insan üçün çox çətindir! Bəli, bütün bu səbəblər üzündən nəfslə mübarizə etmək ən təhlükəli mübarizə hesab edilir. Həzrət Peyğəmbərimiz (s) tamamilə doğru buyurmuşdur:

**«Ən böyük cihad nəfslə edilən cihaddır».**

Aşağıda qeyd edilən mübarək ayə və hədislər də bu həqiqəti təsdiqləyir:

1. Allah-təala Qurani-Kərimdə buyurmuşdur:

وَأَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ الْهَوَىٰ فَإِنَّ الْجَنَّةَ هِيَ الْمَأْوَىٰ

***«Amma kim (Qiyamət günü) Rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini (şəhvəti) qadağan etmişsə, həqiqətən onun yurdu Cənnətdir!»***[1]

Bununla aydın olur ki, öz nəfsinə qarşı daimi mübarizədən qalib çıxan şəxs ən böyük mükafat olan Cənnətə layiqdir. Həqiqətən də Cənnəti qazanmaq üçün insanın bir çox əziyyət və çətinliyə qatlanmasına dəyər.

2. Əmirəl-möminin Əli (ə) belə nəql edir ki, bir gün Allahın Rəsulu (səqifə) mübarizəni uğurla tamamlayıb geri dönən bir qrup müsəlman döyüşçülərinə xitabən buyurdu:

**«Salam olsun kiçik cihadı uğurla yerinə yetirmiş qövmə. Lakin onların qarşısında hələ böyük cihad vardır.**

**Müsəlmanlar o Həzrətdən: - Ey Allahın Rəsulu, bəs böyük cihad nədir? - deyə soruşduqda, Peyğəmbər (s) belə buyurdu: «Ən yaxşı cihad insanın öz daxilindəki nəfsi ilə etdiyi cihaddır».**[2]

Bəlkə də, hədisin sonuncu hissəsi nəfslə cihad etməyin ən təhlükəli nöqtələrindən birinə işarə edir. Həmin təhlükəli nöqtə isə yuxarıda haqqında danışılan nəfslə insanın möhkəm bağlılığı, sıx əlaqəsi və onun insana daxili düşmən olması məsələsidir.

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

**«Qüdrətli insan qol gücünə malik olan deyil, qəzəbləndikdə nəfsini cilovlamağı (özünü ələ almağı) bacaran insandır».**[3]

4. Fəzalə ibn Ubeyd Peyğəmbər (s)-in belə buyurduğunu nəql etmişdir:

---

[1] «Naziat» surəsi, ayə 40-41.
[2] «Biharul-ənvar», cild 70, səh. 64.
[3] «Səhih əl-Buxari»», Ədəb bölməsi, 5763-cü hadis.

**«Həqiqi mücahid öz nəfsi ilə cihad edən şəxsdir».**[1]

5. İmam Əli (ə) buyurmuşdur:

**«Ən şücaətli insan nəfsi istəklərinə qalib gələn insandır».**

6. İmam (ə) yenə də buyurmuşdur:

**«Nəfsinizə qarşı cihadı davam etdirməklə ona sahib (onu cilovlayın)».**[2]

7. Başqa bir kəlamında isə Həzrət belə o buyurmuşdur:

**«Nəfsi islah etmək üçün (şəhvani) istəklərə qarşı cihad etmək lazımdır».**[3]

8. İmam Əli (ə) nəfslə mübarizə aparılan zaman zəruri olan bəzi taktikalar haqqında danışarkən buyurmuşdur:

**«Nəfsinlə mübarizə aparmaq sənin üçün çətinləşdikdə ona qarşı daha da sərt ol ki, sənə boyun əysin və onu aldat ki, sənə tabe olub, itaət etsin».**[4]

İnsan gərək bu mübarizənin çətinliyi qarşısında tezliklə təslim olaraq məğlubiyyətlə razılaşmasın və düşmənin hiyləsinə aldanaraq onun istəyini qəbul etməsin. Əksinə öz mətinliyi və sərtliyi ilə şəhvani istəklərin müqavimətini qıraraq nəfsini zəlil etsin. Habelə Öz müdrikliyi ilə şirnikdirici (günahlara sövqedici) istəklərini aldadaraq yaranmış fürsətləri onların əlindən çıxartsın.

9. İmam Əli (ə) yenə də buyurmuşdur:

**«Nəfsinə arxa çevirirək (yəni onun istəklərini, təkliflərini rədd edərək) yaxınlaş».**[5]

---

[1] «Sünən Tirmizi». Cihadın fəzilətləri bölməsi, 1621-ci hədis.
[2] «Mizan əl-hikmə», cild 10, səh. 143.
[3] Həmin mənbə.
[4] Həmin mənbə.
[5] «Mizan əl-hikmə», cild 10, səh. 144.

Çünki nəfsə, onun istəklərini qəbul edərək yaxınlaşmaq insanı, eləcə də nəfsi həlak edər. Nəfslə onun tələblərini rədd edərək rəftar etmək isə ilk növbədə onun (nəfsin) xeyrinə olub islah olunmasına xidmət edir.

10. İmam Əli (ə) buyurmuşdur: **«Nəfsin aldadıcı (yəni onu islah etməyin yolu) şəhvani istəklərdən çəkinmək və dünya ləzzətlərindən pəhriz saxlamaqdadır».**[1]

11. Həmçinin o Həzrət xütbələrindən birində belə buyurmuşdur:

**«Bilin ki, (nəfs tərəfindən) Allaha itaət sayılan bütün əməllər könülsüz, Ona asilik sayılan əməllər isə rəğbətlə qarşılanar. Odur ki, öz şəhvətindən uzaqlaşan və həvayi-nəfsini boğan şəxsə Allahın mərhəməti olsun. Həqiqətən də bu nəfs insanı çox ağla sığmaz dərəcədə pis məqsədlərə sürükləyən və daima şövqlə günaha can atandır. Və bilin ki, - Ey Allah bəndələri - mömin gecə-gündüz öz nəfsinə şübhə ilə yanaşar (yəni, daima onunla həddindən artıq ehtiyatla rəftar edər), onu məzəmmət edər və gücləndirməyə (islah etməyə) çalışar».**[2]

12. İmam Əli (ə) orduda sərkərdə təyin edib Şama göndərdiyi Şüreyh ibn Haniya tövsiyə edərək buyurmuşdur:

**«Allahdan qorx (yəni, daima Allahın qadağa etdiyi şeylərdən çəkin) dünyanın səni aldatmasından ehtiyat et. Heç vaxt ona (dünyaya) bel bağlama. Bil ki, pisliyə düşməmək üçün sevdiyin şeylərin çoxundan nəfsini çəkindirməsən şəhvani istəklər sənə çox ziyan gətirər.**

[1] Həmin mənbə.
[2] «Nəhcül-bəlağə», 176-cı xütbə.

**Qəzəblənib coşduqda isə ona sahib çıx və onu əzib özünə tabe et».**[1]

13. İmam Əli (ə) yenə də buyurmuşdur:

**«Ən yaxşı əməllər, nəfsini məcbur edərək yerinə yetirdiyin əməllərdir».**[2]

Çünki hər bir əməlin aqibəti özündən sonra bağışladığı təsir, yəni nəfsə qalib gəlmək və ona müxalif çıxmaq, onun özündən daha əhəmiyyətlidir.

14. Digər bir xütbəsində isə İmam (ə) insanın, öz nəfsinə müqavimət göstərib onu islah etməkdə əsas rolunu bəyan edərək buyurmuşdur:

**«Bilin ki, insan nəfsini islah edərək onu özü üçün nəsihət verici və pisliklərdən çəkindirici bir qüvvəyə çevirməyincə ondan (nəfsdən) qeyri heç bir qüvvə insana nə nəsihət verər, nə də onu pisliklərdən çəkindirər».**[3]

15. İmam Əli (ə) daha bir kəlamında buyurmuşdur: **«Nəfsimi təqva ilə tərbiyə edirəm ki, ən qorxulu günə (Qiyamət gününə) xətircam halda gəlsin».**[4]

Mövzunun əvvəlində nəfslə mübarizədə heç kəsin istisna edilmədiyi qeyd edilmişdir. Hətta öz əzəməti və ali məqamı ilə İmam Əli (ə) da digər insanlar kimi nəfsi ilə mübarizə aparmaq məcburiyyətində qalmışdır. Bəlkə də, İmam (ə)-ın əzəmətli bir şəxsiyyətə çevrilməsinin sirri də məhz o Həzrətin öz nəfsi üzərində layiqli qələbə qazanmasındadır.

16. O Həzrət yenə də buyurmuşdur:

---

[1] «Nəhcül-bəlağə, 56-cı tövsiyyə.
[2] «Nəhcül-bəlağə, Qısa və hikmətli kəlamlar bölməsi, 249-cu kəlam.
[3] «Nəhcül-bəlağə», 90-cı xütbə.
[4] «Nəhcül-bəlağə», 45-ci məktub.

**«Cismə xidmət göstərmək, onun tələb etdiyi ləzzətlər və qane olduğu şəhvətlərlə təmin etməkdən ibarətdir. Bu isə nəfsin həlak olması ilə nəticələnir».**[1]

17. Nəfslə mübarizə aparmağın gedişatına, bu mübarizədə iştirak edən tərəflərin və onların mövqelərinin müəyyən edilməsinə gəldikdə isə İmam Əli (ə) buyurmuşdur:

**«Əql Allah qoşununun, şəhvət də şeytan qoşununun sərkərdəsidir. Nəfs isə bunların arasında özünə mövqe seçib hər iki cəbhəyə meyyli olan tərəfdir. Belə ki, bu iki qüvvədən hansısa biri qalib gəlirsə, nəfs də onun tərəfinə keçir».**[2]

18. İmam (ə) eyni məzmunlu başqa bir kəlamında isə buyurmuşdur:

**«Əql və şəhvət bir-biri ilə düşməndirlər. Əqli dəstəkləyən elm, şəhvəti bəzəyən isə ehtiras hissləridir. Nəfs bu iki qüvvə arasında bitərəf mövqe tutduğundan onlardan hər hansı daha güclü olursa, həmin tərəfə keçir».**[3]

Deməli, əql insanın öz nəfsinə qarşı apardığı döyüşün sərkərdəsi, elm və bilik isə bu döyüşün ən əsas silahlarıdır. Bu mübarizədə hər iki tərəfin - **əql** və **şəhvətin** öz qoşunu və silahları vardır. Onlardan biri Allah-təalanın, digəri isə şeytanın qoşunudur. Hər iki qoşun eyni insanın daxilində mübarizə aparır.

---

[1] «Mizan əl-hikmə», cild 10, səh. 147.
[2] «Mizan əl-hikmə», cild 7, səh. 405.
[3] Həmin mənbə.

## NƏFS VƏ ONUN İNSANA MÜTƏMADİ TƏSİRİ

İnsanın dünya həyatı və axirətdə aqibəti bir növ onun nəfsinin girovudur. Onun hər iki həyatda aqibəti - xoşbəxt və ya bədbəxt yaşaması nəfsinin durumundan asılıdır. Belə ki, nəfs sağlam olub əqlin göstərişlərinə tabe olarsa, insanın hər iki həyatda xoşbəxt yaşamasına zəmin yaranar. Yaxud bunun əksinə olaraq ehtiras və şəhvani hisslər insana hakim kəsilərsə, onun hər iki həyatını bədbəxtlik bürüyər. Bu həqiqəti, həmçinin dini mənbələr də (ayə və hədislər) təsdiqləyir. Əvvəldə qeyd etdiyimiz ayədə də Allah-təala bu haqda buyurmuşdur:

وَنَفْسٍ وَمَا سَوَّاهَا فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا قَدْ أَفْلَحَ مَنْ زَكَّاهَا وَقَدْ خَابَ مَنْ دَسَّاهَا

***«And olsun nəfsə və onu yaradana. Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, nəfsini təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır».***[1]

Bununla da məlum olur ki, insanın uğur qazanıb nicat tapması onun öz nəfsini təmizləməsinə bağlıdır. Müvəffəqiyyətsizlik və ziyana uğramaq isə azğınlıq və nəfsin mənəvi çirkaba batmasının qaçılmaz nəticələridir.

Unutmaq olmaz ki, nəfs təqvanın köməyi ilə islah olunmağa, saflaşmağa hazır olduğu kimi, həmçinin azğınlığa və fəsada tərəf yönəlməyə də meyllidir. İmam Əli (ə) bu haqda belə buyurmuşdur:

---

[1] «Şəms» surəsi, ayə 7-10.

**«Hər bir insan (müvəffəqiyyətsizliyə uğradıqda) yalnız özünü (öz nəfsini) qınamalıdır».**[1]

İnsanın gələcək həyatını, aqibətini müəyyənləşdirən məhz onun nəfsidir. Bu səbəbdən də qarşısına çıxan hər bir uğursuzluğa və bədbəxtçiliyə görə, yalnız onun özü (nəfsi) məsuliyyət daşıyır.

## NƏFSİN DÜÇAR OLDUĞU BƏZİ XƏSTƏLİKLƏR

Həqiqətən də bütün problem, yalnışlıq və pisliklər nəfsin düçar olduğu xəstəliklərdən törənir. Bu problemlər törənir, böyüyür və tədricən genişlənir. Maraqlıdır, həmin problemlərin yaranmasına səbəb olan xəstəliklər hansılardır? Və insan onlardan necə islah olunmalıdır?

Aşağıda qeyd edilən bəzi dini mənbələr də məhz bu xüsusda buyurulmuşdur.

1. İnsanın, öz qardaşını qətlə yetirərək onun haqqını (malını) müsadirə etməsi həyatda ən çirkin cinayət sayılır. Lakin ən çirkin cinayət olmasına baxmayaraq, insan nəfsi xəstəliklərə düçar olduqda bu işi yerinə yetirir. Qurani-Kərim yer üzərində baş vermiş ilk qətl hadisəsindən - Adəm (ə)-ın oğlu Qabilin öz qardaşı Habili öldürməsindən danışarkən bu cinayətin törənməsinə məhz nəfsin bais olduğunu vurğulayır. Belə ki, Allah-təala «əl-Maidə» surəsinin 30-cu ayəsində buyurmuşdur:

فَطَوَّعَتْ لَهُ نَفْسُهُ قَتْلَ أَخِيهِ فَقَتَلَهُ فَأَصْبَحَ مِنَ الْخَاسِرِينَ

---

[1] «Nəhcül-bəlağə», 16-cı xütbə.

***«Nəfsi onu (Qabili) qardaşını öldürməyə sövq etdi, onu (Habili) öldürdü və bununla da zərər çəkənlərdən oldu».***

2. Nəfsə aid olan halətlərdən biri də qorxudur. Bu həqiqətə Allah-təala Qurani-Kərimdə belə işarə etmişdir:

فَأَوْجَسَ فِي نَفْسِهِ خِيفَةً مُوسَىٰ قُلْنَا لَا تَخَفْ إِنَّكَ أَنْتَ الْأَعْلَىٰ

***«Musanın canına (nəfsinə) qorxu düşdü. (O, qorxdu ki, camaat sehrlə möcüzə arasında fərq qoya bilməyib iman gətirməsin). Biz ona belə buyurduq: - Qorxma, üstün gələcək mütləq sənsən!»***[1]

3. Nəfsin düçar olduğu xəstəliklərdən digəri xəsislikdir. Bu haqda isə Allah-təala belə buyurmuşdur:

فَاتَّقُوا اللَّهَ مَا اسْتَطَعْتُمْ وَاسْمَعُوا وَأَطِيعُوا وَأَنْفِقُوا خَيْرًا لِأَنْفُسِكُمْ ۗ وَمَنْ يُوقَ شُحَّ نَفْسِهِ فَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُونَ

***«Allahdan (Allahın əzabından) bacardığınız qədər qorxun. (Sizə verilən öyüd-nəsihəti dinləyin, (Allaha və Peyğəmbərinə) itaət edin və (mal-dövlətinizdən) Allah yolunda xərcləyin. Bu sizin özünüz üçün xeyirli olar. Nəfsinin xəsisliyindən (tamahından) qorunub saxlanılan kimsələr məhz onlar nicat tapıb səadətə qovuşanlardır!»***[2]

4. Günahları insanın gözündə bəzəyən, onu dindan dönməyə, həmçinin dini dəyərlərdə cahillik nümayiş etdirməyə sövq edən də nəfsdir. Buna misal olaraq, Musa (ə)-in dövründə yaşamış Samiri adlı bir şəxsin nəfsinə tabe olması səbəbindən üzləşdiyi uğursuzluğu göstərmək olar. O, möminləri qiymətli daş-qaşdan düzəltdiyi buzova ibadət etməyə yönəldərək yollarından azdırmışdır. Bu hadisə

[1] «Taha» surəsi, ayə 67-68.
[2] «Tağabun» surəsi, ayə 16.

haqqında Allah-təala Qurani-Kərimin «Taha» surəsinin 95-96-ci ayələrində xəbər verərək bildirmişdir.

قَالَ فَمَا خَطْبُكَ يَا سَامِرِيُّ قَالَ بَصُرْتُ بِمَا لَمْ يَبْصُرُوا بِهِ فَقَبَضْتُ قَبْضَةً مِنْ أَثَرِ الرَّسُولِ فَنَبَذْتُهَا وَكَذَٰلِكَ سَوَّلَتْ لِي نَفْسِي

***«(Musa) Ey Samiri! Sənin (bu pis, əcaib işi görməkdə) məqsədin nə idi? - deyə soruşdu. (Samiri) belə cavab verdi: - Mən (İsrail oğullarının) görmədiklərini (Cəbraili) gördüm. Mən o Rəsulun (Allah elçisinin) ləpirindən bir ovuc torpaq götürdüm və onu (çaladakı od içində əriyən bəzək şeylərinə) atdım (o da dönüb bir buzov oldu). Beləcə, nəfsim məni bu işə sövq etdi».***

5. İnsanların peyğəmbərlərə qarşı çıxıb onlarla düşmənçilik etmələrinə də nəfsi istəklər səbəb olmuşdur. Allah-təala həmin insanları Qurani-Kərimdə belə məzəmmət etmişdir:

وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ وَقَفَّيْنَا مِنْ بَعْدِهِ بِالرُّسُلِ ۖ وَآتَيْنَا عِيسَى ابْنَ مَرْيَمَ الْبَيِّنَاتِ وَأَيَّدْنَاهُ بِرُوحِ الْقُدُسِ ۗ أَفَكُلَّمَا جَاءَكُمْ رَسُولٌ بِمَا لَا تَهْوَىٰ أَنْفُسُكُمُ اسْتَكْبَرْتُمْ فَفَرِيقًا كَذَّبْتُمْ وَفَرِيقًا تَقْتُلُونَ

***«(Ey İsrail övladları!) Hər dəfə ürəyinizə yatmayan (nəfsi istəklərinizə uyğun gəlməyən) bir əmrlə gələn peyğəmbərə təkəbbür göstərmirdinizmi? Məhz, bu səbəbdən onların bir qismini təkzib etdiniz, bir qismini isə öldürdünüz».***[1]

6. Qardaşlarının Yusif (ə)-a qarşı törətdikləri çirkin cinayət - gözəllikdə misli olmayan kiçik və məsum uşağı (Yusifi) vəhşicəsinə qaranlıq bir quyuya atmaları da, yalnız

---

[1] «Bəqərə» surəsi, ayə 87.

onların nəfslərinin azğınlığa, xəstəliklərə düçar olması səbəbdən baş vermişdi. Allah-Təala Qurani-Kərimdə onların ataları Yəqub (ə)-ın dilindən elə buyurmuşdur:

...قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنْفُسُكُمْ أَمْرًا ۖ فَصَبْرٌ جَمِيلٌ ۖ وَاللَّهُ الْمُسْتَعَانُ عَلَىٰ مَا تَصِفُونَ

***«(Yaqub) dedi: «Xeyr (heç də dediyiniz kimi deyildir) sizin öz nəfsiniz sizi bu işə sövq etmişdir. Mənə yalnız gözəl (tükənməz dözümlü) səbr gərəkdir. Dediklərinizin (Yusif barədə) yalan olduğunu sübut etmək üçün ancaq Allahdan kömək diləmək lazımdır!»***[1]

7. Həsəd aparmaq da, həmçinin istər fərdlər, istərsə də millətlər və cəmiyyətlər arasında yayılmış, düşmənçilik yaradan nəfsi xəstəliklərdən biridir. Bu haqda Allah-təala belə buyurmuşdu:

وَدَّ كَثِيرٌ مِنْ أَهْلِ الْكِتَابِ لَوْ يَرُدُّونَكُمْ مِنْ بَعْدِ إِيمَانِكُمْ كُفَّارًا حَسَدًا مِنْ عِنْدِ أَنْفُسِهِمْ مِنْ بَعْدِ مَا تَبَيَّنَ لَهُمُ الْحَقُّ

***«(Ey möminlər!) Kitab əhlindən bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərindəki (nəfslərindəki) həsəd (paxıllıq) üzündən sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə sövq etmək istərlər».***[2]

8. Təkəbbürlük isə nəfsin dərinliyində özünə yurd salmış bir xəstəlikdir. Bu xəstəliyə düçar olan insanlar haqda Allah-təala «Furqan» surəsinin 21-ci ayəsində buyurmuşdur:

لَقَدِ اسْتَكْبَرُوا فِي أَنْفُسِهِمْ وَعَتَوْا عُتُوًّا كَبِيرًا

---

[1] «Yusif» sürəsi, ayə 18.
[2] «Bəqərə» sürəsi, ayə 109.

***«Həqiqətən, onlar özləri barəsində təkəbbürə qapıldılar və (Allahı bilavasitə görmək, onunla danışmaq istəməyə cürət etməklə) azğınlaşıb həddi çox aşdılar».***

9. Allahın dinindən, peyğəmbərlərin risalətindən üz döndərməyə də zəmin yaradan amil nəfsin azğınlaşmasıdır. Bu əmələ Qurani-Kərimdə səfehlik adı verilmişdir. Allah-təala müqəddəs kitabında buyurmuşdur:

وَمَنْ يَرْغَبُ عَنْ مِلَّةِ إِبْرَاهِيمَ إِلَّا مَنْ سَفِهَ نَفْسَهُ

***«(Ya Məhəmməd!) Özünü safehliyə qoyanlardan başqa kim İbrahimin dinindən üz çevirər?»***[1]

10. İmam Əli (ə)-da kəlamlarının birində nəfsi xəstəliklərdən birinə toxunaraq buyurmuşdur: **«Nəfsin bəlası onun dünyaya valeh olmasıdır».**[2]

11. O Həzrət yenə buyurmuşdur: **«İnsanın özünü bəyənməsi (lovğalıq) onun əqlinə həsəd aparan (paxıllıq edən) şeylərdən biridir».**[3]

## HƏR ŞEYDƏN ƏVVƏL NƏFSİN İSLAHIDIR

İnsanın ən çox diqqət yetirib ciddi yanaşması olan məsələ nəfsinin islahı məsələsidir. Çünki bu onun xoşbəxtliyinin açarıdır. İnsan məhz bu vəzifənin öhdəsindən layiqincə gəldikdən sonra digər məsələləri həll etməyə və həyatının müxtəlif tələbatını ödəməyə nail ola bilər. O, yalnız bu mərhələni uğurla keçdikdən sonra Allah-təalanın ona bəxş etdiyi istedadlardan imkanlardan lazımınca faydalana bilər.

---

[1] «Bəqərə» surəsi, ayə 130.
[2] «Mizan əl-hikmə», cild 10, səh. 147.
[3] «Nəhcül-bəlağə». Qısa və hikmətli kəlamlar, 212-ci kəlam.

Lakin əks halda - nəfsinin azğınlığa düçar olduğu təqdirdə insanın həyatda qazandığı bütün nailiyyətlər və kəsblər onun üçün bəlaya, özünə və başqalarına zərər yetirən bir vasitəyə çevrilə bilər.

Elm, mal-dövlət, gözəllik və ya hər hansı bir nemət fitnə-fəsad törədən nəfsin idarəçiliyi, yaxud şəhvani istəklərin hökmranlığı altında olduqda öz sahibinə və digərlərinə yalnız ziyan, bədbəxtlik və səfalət gətirə bilər. Keçmişdə və mövcud dövrdə bəşər övladının düçar olduğu müsibətlər, bəlalar bu həqiqətə real sübutdur. Bu səbəbdən dini mənbələrin (ayə və hədislər) insanın və onun həyatının saflaşması üçün başlıca amil kimi nəfsin islahına əhəmiyyət verilməsi məsələsini xüsusi vurğulamaq təbii qarşılanmalıdır. Həmin dini mənbələr aşağıdakılardır:

1. Allah-təala Qurani-Kərimdə buyurmuşdur:

إِنَّ اللَّهَ لَا يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّىٰ يُغَيِّرُوا مَا بِأَنْفُسِهِمْ

***«Hər hansı bir tayfa öz tövrünü (nəfsində olanları) dəyişmədikcə, Allah da onun tövrünü (onda olanları) dəyişməz».***[1]

2. İmam Əli (ə) isə bu haqda buyurmuşdur:

**«Nəfsini tərbiyə (islah) etməyən, əqlindən faydalana bilməz».**[2]

Birinci fəsildə qeyd etdiyimiz kimi əql sadəcə hər bir məsələdə öz rəyini və mövqeyini bildirir. (İslah olunmamış) Nəfs isə şəhvani istəkləri ilə əqli susdurub insanı ona müxalif çıxmağa məcbur edir.

3. İmam Əli (ə) belə buyurmuşdur:

---

[1] «Rəd» surəsi, ayə 11.
[2] «Mizan əl-hikmə», cild 10, səh. 145.

**«On aciz insan, öz nəfsini islah etməyi bacarmayan kəsdir».**[1]

Öz nəfsini islah etməyi bacarmayan başqalarının nəfsini islah edər və eləcə də həyatının digər problemlərini çözə bilərmi?!

4. Başqa bir hədisdə İmam Əli (ə) buyurmuşdur: **«Ən aciz insan öz nəfsindəki nöqsanları bərpa etməyə qadir olduğu halda bunu etməyən şəxsdir».**[2]

Nəticə olaraq belə qənaətə gəlirik ki, prinsip etibarilə insan öz nəfsindəki nöqsanları bərpa etməyə qadirdir, lakin ona bu işdə mane olan həvayi-nəfs və şəhvani istəkləridir. Nəfsinə müqavimət göstərməyi bacarmayan şəxsin isə həyatda uğur qazanmasına ümid bəsləmək mümkün deyil.

5. İmam Əli (ə) buyurmuşdur: **«Nəfsini islah edən ona sahib olar (onun cilovunu ələ alar), nəfsinə qarşı etinasızlıq göstərən isə onu həlak edər».**[3]

6. Həvayi-nəfsin əsarəti altında, şəhvani istəklərin köləsi kimi yaşamağa nə qiymət verilə bilər? Bu halda həyat sanki fəsad və pisliklər məskəninə, günahlarla dolu bir cəhənnəmə çevrilir.

İmam Əli (ə) bu həqiqətə belə işarə etmişdir: **«Öz nəfsinin nöqsanlarından xəbərdar olub, onları izləməyən şəxsə həvayi-nəfsi qalib gələr. Nöqsanlar içində yaşayan insan üçün isə ölüm daha yaxşıdır».**[4]

7. Ən pis hal odur ki, insan nəfsinin islahi və tərbiyəsinə möhtac olmadığını düşünsün. Belə olduqda Allahın insana

---

[1] «Mizan əl-hikmə», cild 10, səh. 146.
[2] Həmin mənbə.
[3] Həmin mənbə.
[4] Həmin mənbə.

qəzəbi tutar və daim fitnə-fəsad, zəlalətdə yaşadığı üçün insanlar da ona nifrət edər. İmam Əli (ə) bu haqda buyurmuşdur: **«Nəfsindən razı olan şəxslərdən narazı qalanlar çox olar».**[1]

8. İmam (ə) başqa bir kəlamında buyurmuşdur: **«Ey insanlar! Nəfsinizin islah olunmasına diqqət yetirin və onu adət etdiyi çirkin işlərdən qoruyun!»**[2]

Həqiqətdə pis olan bir işə adət etmək heç də həmin işin qanuni və ya yaxşı iş olduğuna dəlalət etmir. Bu səbəbdən insan nəfsinin aludə olduğu çirkin adətlərin möhkəmliyinə baxmayaraq, onların qarşısında təslim olmamalıdır.

9. İmam Əli (ə) oğlu Həzrət Həsən (ə)-a yazdığı vəsiyyətnamədə ona buyurmuşdur: **«Övladına ürəyi yanan hər bir ata kimi mən də sənin halına yandığımdan (səni düşündüyümdən) istəyirəm ki, öyrədəcəyim sifətlərə malik olasan... Sən ömrünün gənc çağlarındasan, yaşayacağın günlər hələ qarşıdadır. Sənin sağlam niyyətə və saf, təmiz bir nəfsə sahib olmağını istəyirəm».**[3]

Həqiqətən də, ömrünün ilkin çağlarında - nəfs maddiyyat çirkabına batmazdan öncə onu islah etmək daha asan və daha gözəl olur.

10. İmam Əli (ə) buyurmuşdur: **«Yer üzərində Allah-təala üçün, öz Rəbbinin əmrlərinə müti olan nəfsdən daha əziz bir şey yoxdur».**[4]

11. İmam (ə) yenə də buyurmuşdur: **«Nəfsi islah etmək üçün ən gözəl vasitə təqvadır».**[5]

---

[1] «Nəhcül-bəlağə», Qısa və hikmətli kəlamlar, 6-cı kəlam.
[2] Həmin mənbə, 359-cu kəlam
[3] Həmin mənbə, 31-ci məktub.
[4] «Mizan əl-hikmə», cild 10, səh. 125.
[5] «Mizan əl-hikma», cild 10, səh. 144.

12. İmam Əli (ə) buyurmuşdur: **«Nəfsini məzəmmət edən onu islah etmiş, tərifləyən isə onu həlak etmiş olar».**[1]

13. İmam Əli (ə) buyurmuşdur: **«Həvayi-nəfsindən uzaqlaşan şəxsin əqli sağlam olar».**[2]

14. Başqa bir kəlamında isə İmam Əli (ə) əqlin, yalnız nəfsi istəklərin və şəhvani hisslərin təsiri altından çıxıb müstəqil olduqda insan həyatında tam surətdə idarəedici qüvvə kimi rol oynadığını bildirərək buyurur:

**«Əql nəfsi istəklərin əsarəti altından çıxdıqda və dünya sevgisindən (dünyanın aldadıcı və müvəqqəti ləzzətlərinə bağlılıqdan) xilas olduqda bunları (söylədiyim nəsihətləri, həqiqətləri) təsdiqləyər».**[3]

## NƏFS ƏN TƏHLÜKƏLİ DÜŞMƏNDİR

İnsanın öz düşmənini yaxından tanıyaraq onun planlarından xəbərdar olması həmin düşmənə qarşı müqavimət göstərib qalib gəlməyində yardımçı olur. Belə ki, düşmən və onun planları nə qədər məxfi olsa, mübarizə aparmaq da bir o qədər çətin və təhlükəli olar.

İnsanın nəfsi ilə olan problemi də məhz bu nöqtədə gizlənir. Belə ki, insan nəfsinin onunla düşmən mövqeyində olduğunu asanlıqla kəşf edə bilmir. Həmçinin nəfs aldadıcı və məkrli üslublardan çox məharətlə istifadə edir. Hansı ki, insan bəzən bu hiylələri anlamağa belə nail olmur, yaxud onların mənfi təsir bağışlayacağı haqda heç düşünmür. Bu haqda olan dini mənbələr və göstərişlər də məhz insana öz nəfsini tanıyıb

[1] Həmin mənbə.
[2] «Mizan əl-hikmə», cild 6, səh. 436.
[3] «Nəhcül-bəlagə», 3-cü fəsil.

hiylələrini onun qarşısında aşkar etməyi başlıca hədəf seçmişdir ki, insan nəfsi ilə son dərəcə ayıq və diqqətlə rəftar etsin.

Həzrət Peyğəmbərimiz Məhəmməd (s) buyurmuşdur:

**«Sənin ən qatı düşmənin öz daxilindəki nəfsindir».**[1]

İmam Əli (ə) isə bu haqda belə buyurmuşdur:

**«Əqlin düşməni həvayi-nəfsdir».**[2]

## NƏFSLƏ HESABAT ÇƏKMƏK VƏ ONU İZLƏMƏK

Şəhvani meyl və rəğbətlər nəfsin tərkibində insanın seçimi ilə deyil, məhz İlahi hikmətin göstərişi ilə bərqərar olmuşdur. İnsan isə bu meylləri və rəğbətləri doğru istiqamətə yönəltməyə çalışmalıdır. Çünki həqiqətdə insan məhz bu vəzifəni həyata keçirmək üçün dünyaya gəlmişdir. O, əqli, vicdanı və mürvəti ilə nəfsinin cəhdlərini nəzarətdə saxlamalı, onun istəklərini diqqətlə izləməlidir ki, düçar olduğu xəstəliklərdən, bəlalardan onu (nəfsini) xilas etməyə və gözlənilən xətaların, günahların qarşısını almağa qadir olsun.

Cismin yuyunub təmizlənməyə, tibbi müayinədən keçməyə və xəstəliklərdən müalicə olunmağa ehtiyacı olduğu kimi, nəfs də mənəvi çirkabdan və xəstəliklərdən qorunmaq üçün mütəmadi halda nəzarətdə qalmaq və izlənməyə ehtiyac duyur. Bu səbəbdən dini mənbələr (ayə və hədislər) insanları nəfsləri ilə hesablaşaraq onu izləmək üçün sabit bir proqram tərtib etməyi tövsiyə edir.

---

[1] «Biharül-ənvar», cild 70, səh. 64.

[2] «Mizan əl-hikmə», cild 6, səh. 436.

1. Bu haqda Həzrət Peyğəmbərimiz (s) belə buyurmuşdur:

**«Ağıllı insan öz vaxtını müəyyən hissələrə bölməlidir. Bu hissələrin birində o, Rəbbi ilə münacat etməli (ibadətlə məşğul olmalı), digərində nəfsi ilə hesablaşmalı və qalan hissədə isə Allah-təalanın onun üçün yaratdığı nemətlər haqqında düşünməlidir».**[1]

2. O Həzrət (s) yenə də buyurmuşdur: **«Hər bir bəndə nəfsi ilə şərikin öz ortağı və ağanın öz qulu ilə hesabatlaşmasından daha sərt şəkildə hesabat çəkməyincə mömin sayılmaz».**[2]

3. İmam Cəfər Sadiq (ə) buyurmuşdur: **«(Qiyamət günü) sorğu-sual olunmazdan öncə öz nəfsinizlə hesabat çəkin. Həqiqətən, Qiyamət günü əlli mərhələ (sorğu-sual mərhələsi) olacaq və hər bir mərhələ də min ilə bərabər olacaqdır».**[3]

Sonra isə İmam (ə) bu ayəni oxudu:

يُدَبِّرُ الْأَمْرَ مِنَ السَّمَاءِ إِلَى الْأَرْضِ ثُمَّ يَعْرُجُ إِلَيْهِ فِي يَوْمٍ كَانَ مِقْدَارُهُ أَلْفَ سَنَةٍ مِمَّا تَعُدُّونَ

***«O, (Allah-təala) göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra (həmin işlər) sizin saydığınızın (dünya ilinin) min ilinə bərabər olan bir gündə (Qiyamət günündə) Ona (Allah dərgahına) yüksələr».***[4]

4. İmam Museyi Kazım (ə) bu haqda buyurmuşdur:

---

[1] «Biharül-ənvar», cild 70, səh. 64
[2] Həmin mənbə.
[3] «Biharül-ənvar», cild 70, səh. 64.
[4] «Səcdə» surəsi, ayə 5.

**«Hər gün öz nəfsi ilə haqq-hesab çəkməyən şəxs bizdən (müsəlman) deyil. Belə ki, yaxşı işlər görmüşsə, onların daha da çoxalmasını diləməli və Allah-təalaya şükr etməli və yaxud pis işlər görmüşsə, Allah-təaladan onların bağışlanılmasını istəməli (bu işlərə görə) tövbə etməlidir».**[1]

5. İmam Əli (ə) insanları, öz nəfsləri ilə hesabat çəkmədən onu nəzarətsiz qoymaqdan çəkindirərək buyurmuşdur:

**«Nəfsinə qarşı biganə olan şəxs mənliyini itirər».**[2]

6. Şaddad ibn Ous Həzrət Rəsulullah (s)-ın belə buyurduğunu nəql etmişdir:

**«Özünü (öz nəfsini) danlayan (onunla hesabat çəkən) və ölümdən sonrakı həyatı (axirəti) üçün çalışan fərasətli, nəfsi öz (şəhvani) istəklərinin arxasınca gedən və Allaha minnət edən isə aciz insandır».**

Tirmizi bu hədis haqqında belə demişdir:

**«Bu həsən**[3] **hədisdir Həzrət Peyğəmbər (s) «özünü (nəfsini) danlayan», - dedikdə, Qiyamət günü sorğu-sual olunmazdan əvvəl dünyada özü (nəfsi) ilə hesabat edən şəxsə işarə edir».**

Ömər ibn Xəttabın (Peyğəmbərin dilindən) belə bir hədis söylədiyi rəvayət olunmuşdur: **«(Qiyamət günü) sorğu-sual olunmazdan əvvəl özünüzlə (nəfsinizlə) hesabatlaşın və**

---

[1] «Biharül-ənvar», cild 70, səh. 64.
[2] «Mizan əl-hikmə», cild 10, səh. 146.
[3] Üsul elmində hədislər bir neçə qismə bölünmüşdür və bu qismlərdən biri də həsən hədislər qismidir. Həsən hadis dedikdə (ravilərin hayatını öyrənən) alimlər tərəfindən mədh edilmiş ravilərin və yaxud da on iki imam tərəfdarı olmuş, inanılmış və mədh edilmiş ravilərin nəql etdikləri hədis nəzərdə tutulur (Tərcüməçidən).

**Qiyamət günü üçün yaxşı əməllərlə zinətlənin. Qiyamət günü sorğu-sual, yalnız dünyada özü (nəfsi) ilə hesabat etmiş insan üçün asan olacaq». Məymun ibn Mehran tərəfindən də (Peyğəmbər (s)-in buyurduğu) bir hədis rəvayət olunmuşdur: «İnsan, ortağı ilə onun yediyi və geyindiyi şeylərlə bağlı hesabat apardığı kimi özü (nəfsi) ilə də hesabatlaşmayınca təqvalı bəndə sayılmaz».**[1]

7. İnsan öz nəfsi ilə hesabat apardıqda və onu izlədikdə də olduqca diqqətli və sərt olmalıdır. Əks halda laqeidliyi və biganəliyi onu çətinliklərlə üzləşdirər.

İmam Əli (ə) bu haqda buyurmuşdur: **«Nəfsinə, onun sevdiyi işlərdə güzəşt edən insana nəfsi nifrət etdiyi işlərlə əziyyət verər».**[2]

8. İmam Əli (ə) yenə də buyurmuşdur: **«Öz nəfsi ilə hesabat aparan uğur qazanar, ondan xəbərsiz olan isə ziyana uğrayar».**[3]

9. İmam (ə) xütbələrinin birində belə buyurmuşdur:

**«Ey Allah bəndələri! (Qiyamət gününün tərəzisində çəkilməzdən əvvəl) nəfsinizi (haqq tərəzisində) çəkin və (həmin gün) sorğu-sual olunmazdan öncə onunla hesablaşın».**[4]

Bununla məlum olur ki, dini baxımda insanın dünyada öz nəfsi ilə hesabat aparmasının, axirətdə Allah-təalanın onu sorğu-sual etməsi ilə əlaqəli olduğu dəfələrlə bəyan edilir. İnsan dünyada nəfsini nəzarətdə saxlayaraq onu doğru istiqamətə yönəldib diqqətlə izlədikdə, axirət sorğu-sualı onun

---

[1] «Sünən Tirmizi». Sifətul-qiyamə var-rəqaiq vəl-vərə bölməsi, 2459-cu hədis.
[2] «Mizan əl-hikmə», cild 10, səh. 146.
[3] «Nəhcül-bəlağə», Qısa və hikmətli kəlamlar, 208-ci kəlam.
[4] «Nəhcül-bəlağə». Qısa və hikmətli kəlamlar. 90-cı xütbə.

üçün asanlaşmış olar. Lakin nəfsini unudub ona qarşı etinasız və yaxud onunla mülayim davranarsa, axirətdə ona Allah-təalanın hüzurunda olduqca çətin, əzablı və uzun sürən bir imtahan mübtəla edilmiş olar.

10. Təəccüblü burasıdır ki, bəzən insan öz nəfsi ilə hesabat aparmağı və nəzarət etməyi tamamilə ona unudaraq digərlərinin səhvlərinə diqqət yetirir, yalnız onları izləməklə məşğul olur və daim özgələrinin eyiblərindən danışır. İmam Əli (ə) bu qəbildən olan insanlara belə tövsiyyə etmişdir:

**«(Ey insan!») Sən yalnız öz nəfsinlə hesabat çək. Başqa nəfslərin hər birinin hesab çəkəni vardır».**[1]

## NƏFSİ AZGINLIĞIN NƏTİCƏLƏRİ

Həqiqətən, nəfs xəstəliklərə düçar olması və yolunu azması səbəbindən böyük təhlükələr, yeni-yeni dəhşətli vəstəliklərlə üzləşməli olur. Bu böyük təhlükə və yeni törəmiş xəstəliklər insanın həyatının bütün sahələrini əhatə edir, onun dünyada yaşayışını gələcək axirət həyatını həsrət və bədbəxtliyə məhkum edir. İnsanın fitrətində, onu özünü sevməyə, həmçinin təhlükə və zərərlərdən uzaqlaşmağa təhrik edən bir hiss olduğu halda, nə üçün bu kimi xəstəlik və böyük təhlükələrə qarşı etinasızlıq göstərərək müvəqqəti ləzzətlər gətirən şəhvətinə ayaraq bu qədər bəlalara və bədbəxtliyə düçar olmağa razı olur?

Həqiqətdə bu üçün kimi dəhşətli uçuruma yuvarlanmamaq üçün insanın mütəmadi olaraq ilhamlandırmağa, təlimata və öyüd-nəsihətə ehtiyacı vardır.

---

[1] «Nəhcül-bəlağə», Qısa və hikmətli kəlamlar, 222-ci xütbə.

Aşağıdakı dini mətnlərin (ayə və hədislərin) əsas hədəfi də məhz bundan ibarətdir.

1. Qurani-Kərim insanın üzləşdiyi bütün müsibət və bəlalara yalnız özünün (öz nəfsinin) səbəb olduğunu inkar edilməz bir həqiqət kimi bildirmişdir. Belə ki, Allah-təala «Nisa» surəsinin 79-cu ayəsində buyurmuşdur:

مَا أَصَابَكَ مِنْ حَسَنَةٍ فَمِنَ اللَّهِ ۖ وَمَا أَصَابَكَ مِنْ سَيِّئَةٍ فَمِنْ نَفْسِكَ

***«(Ey insan!) Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə özündəndir».***

2. Fərdlərdə olduğu kimi, ümumilikdə, ümmətlər və cəmiyyətlərin də, həmçinin bəlalara düşməsinin, uğursuzluqlara düçar olmasının əsas səbəbi nəfsi problemlərdir. Bu haqda Allah-təala buyurmuşdur:

أَوَلَمَّا أَصَابَتْكُمْ مُصِيبَةٌ قَدْ أَصَبْتُمْ مِثْلَيْهَا قُلْتُمْ أَنَّىٰ هَٰذَا ۖ قُلْ هُوَ مِنْ عِنْدِ أَنْفُسِكُمْ ۗ إِنَّ اللَّهَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

***«Siz (Bədr müharibəsində) onları ikiqat müsibətə düçar etdiyiniz halda (Ühüd müharibəsində) başınıza bir müsibət gəldiyi zaman: «Bu haradan gəldi?» - dediniz? (Ya Məhəmməd!) Söylə: «Bu sizin özünüzdəndir». Həqiqətən, Allah hər şeyə qadirdir».***[1]

Bu ayədə Allah-təala müsəlmanların Ühüd döyüşündəki məğlubiyyətindən söhbət açaraq buna onların özlərində (nəfslərində) olan xəstəliklərin səbəb olduğunu bildirir. Xüsusi olaraq dağın zirvəsində olan oxcuların öz strateji mövqelərini tərk edib qənimət arxasınca getdikdən sonra

[1] «Ali-İmran» surəsi, ayə 165.

düşmən bu döyüşdə əsas mövqeni ələ keçirib üstünlüyə yiyələndi.

3. Digər bir ayədə isə Allah-təala buyurmuşdur:

ذَٰلِكَ بِأَنَّ اللَّهَ لَمْ يَكُ مُغَيِّرًا نِعْمَةً أَنْعَمَهَا عَلَىٰ قَوْمٍ حَتَّىٰ يُغَيِّرُوا مَا بِأَنْفُسِهِمْ ۙ وَأَنَّ اللَّهَ سَمِيعٌ عَلِيمٌ

***«(Kafirlərə verilən) Bu əzab ona görədir ki, bu tayfa özünə bəxş edilən neməti (naşükürlük üzündən küfrə) dayişmayinca, Allah da ona əta etdiyi neməti dəyişən (pisliyə çevirən) deyildir. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, biləndir».***[1]

4. Ənəs ibn Malik Peyğəmbər (s)-in belə buyurduğunu nəql etmişdir:

**«Cənnət əzab-əziyyət və çətinliklərlə, cəhənnəm isə şəhvətlərlə (cəlb edici aldadıcı ləzzətlərlə) əhatə olunmuşdur».**[2]

5. İmam Əli (ə) buyurmuşdur:

**«Nəfsinin öz (şəhvani) istəklərinə uymasına və dünya ləzzətlərini üstün tutmasına yol vermə, yoxsa, o sənin dinini elə viran edər ki, bir daha bərpa edə bilməzsən (yəni səni dinindən elə bir tərzdə uzaqlaşdırar ki, bir daha haqq yola qayıda bilmərsən). Və özünü də elə bir ziyana salar ki, heç zaman uğur qazana bilmərsən».**[3]

Bu ziyan dinin və dünyanın itirilməsidir.

6. Nəfsin haqq yoldan azmasının ən təhlükəli zərərlərindən biri də onun əqlə təsir göstərməsidir. Belə ki,

---

[1] «Ənfal» surəsi, ayə 53.

[2] «Səhih Müslim», Cənnət, onun nemətlərinin vəsfi, Cənnət əhli bölməsi, 2823-cü hədis.

[3] «Mizan əl-hikmə» cild 10, səh. 431.

(sağlam olmayan) nəfs əqlin qüdrətini parçalayıb fəaliyyətini yayındırar. İmam Əli (ə) bu haqda belə buyurmuşdur:

**«Əql havayi-nəfslə şəhvətin təzyiqi nəticəsində aradan gedər».**[1]

Əqli aradan getmiş insanın daha nəyi qalar?

Bundan sonra onun nə qiyməti olar?

7. İmam Əli (ə) insanları, şəhvani hisslərin əqlə üstün gəlməsinə və onun (əqlin) doğru yol göstəricisi kimi rol oynamaq əvəzinə, nəfsin istəklərinə xidmət etməsindən ehtiyatlanmağa çağıraraq buyurmuşdur:

**«Artıq şəhvət hissləri onun (öncə haqqında danışdığı şəxsin) əqlini parçalamışdır».**[2]

8. İmam Əli (ə) Müaviyyə ibn Əbu Sufyana yazdığı məktubda ona belə demişdir: **«Artıq nəfsin səni şərrə doğru sürükləmiş, günahlara batırmış, təhlükəyə atmış və ayri (batil) yollarla getməyə məhkum etmişdir».**[3]

Bununla aydın olur ki, bütün nöqsanların gizləndiyi nöqtə, həmçinin zəlalətin və azğınlığın mənbəyi, məhz odur (nəfs).

---

[1] «Mizan əl-hikmə», cild 6, səh. 431.
[2] «Nəhcül-bəlağə», 109-cu xütbə.
[3] «Nəhcül-bəlağə» 30-cu məktub.

# ÜÇÜNCÜ FƏSİL

## SÜQUTA UĞRAMAQ TƏHLÜKƏSİ

Nə üçün hər gün namazda təkrar olaraq: İlahi, bizi düz yola hidayət et. - deyirik?

Məgər bir müsəlman və mömin olaraq düz yolda deyilikmi?

Getdiyimiz yolun doğruluğuna şübhəmi edirik?

Olmaya zəlalətə uğradığımızı güman edirik?

Həqiqətdə, doğru yol dedikdə insanın yol ayrıcında seçdiyi bir yol deyildir ki, o, bu yolu bir dəfə tapmaqla onunla sonadək gedə bilsin. Əksinə, insan hər an, hər hansı bir mövqe tutmaq və hətta danışmaq istədikdə belə özünü müxtəlif yollar və seçimlər qarşısında görür. Hansı ki, bu yollardan yalnız biri doğru, digərləri isə əyri və batil yolları təmsil edir. Deməli, insan hər an zəlalətə uğramaq və tutduğu yoldan üz döndərmək təhlükəsi ilə üzləşə bilər. Məhz bu səbəbdən o, daim: İlahi, bizi doğru yola hidayət et - deyə dua etməlidir. Çünki əsas məsələ doğru yolu tanıyıb, addımlamaq deyil, bu yolda sabit qədəm olub sədaqətlə davam etdirməkdir. Hidayət olunub haqq yolu tanıdıqdan sonra zəlalətə uğramamaq və batilə doğru meyl etməməyimiz üçün Allah-təala da bizləri daim Onun himayəçiliyini diləməyə çağırır.

Belə ki, Ulu Tanrımız Qurani-Kərimin «Ali-İmran» surəsinin 8-ci ayəsində buyurmuşdur:

رَبَّنَا لَا تُزِغْ قُلُوبَنَا بَعْدَ إِذْ هَدَيْتَنَا وَهَبْ لَنَا مِنْ لَدُنْكَ رَحْمَةً ۚ إِنَّكَ أَنْتَ الْوَهَّابُ

***«Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra ürəklərimizə şəkk-şübhə (azğınlıq, ayrilik) salma! Bizə öz tərəfindən bir mərhəmət bəxş et, çünki Sən həqiqətən (bəndələrinə mərhəmət, nemət) bəxş edənsən!»***

Digər bir ayədə isə uca və əzəmətli xaliqimiz bizə böyük İsrail alimi olmuş Bələm ibn Bauranın əhvalatını xatırladaraq, hidayət və zahidliyin ən uca zirvəsinə yüksəldikdən sonra qəflətən küfr və zəlalət bataqlığına düşdüyü üçün onu mənfi insan obrazında nümunə gətirmişdir. Allah-təala bu şəxs haqqında «Əraf» surəsinin 175-176-cı ayələrində məlumat vermişdir:

وَاتْلُ عَلَيْهِمْ نَبَأَ الَّذِي آتَيْنَاهُ آيَاتِنَا فَانْسَلَخَ مِنْهَا فَأَتْبَعَهُ الشَّيْطَانُ فَكَانَ مِنَ
الْغَاوِينَ وَلَوْ شِئْنَا لَرَفَعْنَاهُ بِهَا وَلَٰكِنَّهُ أَخْلَدَ إِلَى الْأَرْضِ وَاتَّبَعَ هَوَاهُ ۚ فَمَثَلُهُ كَمَثَلِ
الْكَلْبِ إِنْ تَحْمِلْ عَلَيْهِ يَلْهَثْ أَوْ تَتْرُكْهُ يَلْهَثْ ۚ ذَٰلِكَ مَثَلُ الْقَوْمِ الَّذِينَ كَذَّبُوا
بِآيَاتِنَا ۚ فَاقْصُصِ الْقَصَصَ لَعَلَّهُمْ يَتَفَكَّرُونَ

***«(Ya Məhəmməd!) Onlara (yəhudilərə) ayələrimizi verdiyimiz kimsənin (Bələm ibn Buranın) xəbərini söylə. O, (ayələrimizi inkar edib) imandan döndü. Şeytan onu özünə tabe etdi və o, (haqq yoldan) azanlardan oldu. Əgər biz istəsəydik, onu (həmin ayələrlə) ucaldardıq. Lakin o, yerə (dünyaya) meyl edib nəfsinin istəklərinə uydu. O, ela bir köpəyə bənzəyir ki, üstünə cumsan da, dilini çıxardıb ləhlayər, cummasan da. Bu ayələrimizi yalan hesab edənlər barəsində çəkilən məsəllərdir. (Ey Peyğəmbərim!) Bu əhvalatları (yəhudilərə) söylə ki, bəlkə, (lazımınca) düşünsünlər!»***

Məgər İblis Allaha ibadət edib. Onun qarşısında boyun əyməmişdirmi? Hətta cin tayfasından olmasına baxmayaraq, Allah-təala onu yaxşı ibadət etdiyi üçün mələklərin

səviyyəsinə də qaldırmışdı. Qeyd edək ki, Allah-təala onun cinlərdən olması haqda belə buyurmuşdu:

وَإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ كَانَ مِنَ الْجِنِّ

***«(Ya Məhəmməd!) Xatırladaq ki, bir zaman mələklərə: «Adəmə (təzim məqsədilə) səcdə edin!» - demişdik. İblisdən başqa hamı səcdə etdi. O, cinlərdən (cin tayfasından) idi».***[1]

Lakin o, bir anlıq yolundan azması nəticəsində qiyamət gününə qədər zəlalət və bədbəxtlik rəmzinə çevrildi. İmam Əli (ə) bu haqda belə demişdi:

**«İblis altı min il Allaha ibadət etmişdir. Özü də bilinmir ki, bu (altı min il) dünya illərinə aiddir, yoxsa axirət illərinə».**[2]

Bir çox hədislərdə haqq yolda böyük bir məsafəni qət etdikdən sonra süquta və zəlalətə uğramış, tarixdə mənfi obrazda misal vurulan bəzi insanlar haqda məlumat verilmişdir. Yəhudi cəmiyyətlərindən birində Allah qarşısında boyun ayib Ona zəlilcəsinə ibadət etməkdə nümunə olmuş Bərsisa adli zahid bir abidi buna misal gətirmək olar. Allah dərgahında ali fəzilətlər və yüksək məqam sahibi olduğundan bu abidin duası tez müstəcəb olardı. Camaat onun yanına ruhi və digər xəstələri gətirər, abid isə öz növbəsində həmin xəstələrə dua edər və onlar Allahın izni ilə Bərsisanın yanında şəfa tapırdılar.

Günlərin birində onun yanına ruhi xəstəliyə düçar olmuş gözəl və şərəfli bir qadın gətirirlər. Qardaşları Bərsisanın duaları və nəfsinin bərəkəti ilə ona Allah tərəfindən şəfa

---

[1] «Kəhf» surəsi, ayə 50.
[2] «Nəhcül-bəlağə», 192-ci xütbə.

verilməsi üçün bu zavallı qadını onun daxmasında qoyub gedirlər.

Ani bir diqqətsizliyə yol verməsi (nəfsinə aldanması) nəticəsində belə bir abid həmin xəstə qadına qarşı çox iyrənc bir cinayət işlədir. Cinayəti törətdikdən sonra bir neçə anlığa xəyala dalıb özlüyündə; bəlkə də o, hamilə olmuşdur. İlahi, nə rüsvayçılıqdır. - deyə düşünür.

Nəticədə isə, rüsvayçılıqdan qurtulmaq üçün onu öldürüb səhrada basdırmaq qərarına gəlir. Lakin cinayətin aşkar və qaçılmazlığından onun gizlədilməsi mümkün deyildir. Bu səbəbdən abid hökmdarın qarşısında cinayət törətməsini etiraf etmək məcburiyyətində qalır və bu iki cinayət - zina və qətl üçün onun çarmıxa çəkilib edam olunmasına hökm verilir.

Taxta üzərində çarmıxa çəkilmiş vəziyyətdə həqarətli və rüsvayçı həyatdan xilas olub rahatlıq tapmaq üçün ölümünü gözlədiyi an şeytan ona vəsvəsə edərək deyir: «Səni bu müsibətə düçar edən mən oldum. İndi, yalnız mənə bir dəfə səcdə etsən, səni bu rüsvayçılıqdan qurtararam.

Cinayətkar və bədbəxt abid şeytanın təklifini qəbul edərək ondan: - Bu vəziyyətdə olduğum halda sənə necə səcdə edim? - deyə soruşdu. Şeytan isə cavabında: - Səcdəni işarə ilə etsən də, kifayətlənərəm. - deyir.

Nəhayət, işarə ilə şeytana səcdə edən abidin bu səcdədən dərhal sonra canı çıxır...[1]

Beləliklə, onun, həyatı, ən çirkin cinayətə batmış halda sona yetir. Duaları Allah yanında müstəcəb olan bir abid dərəcəsinə yüksəldikdən sonra Bərsisa əvvəlcə zina və qətl kimi cinayətləri törədərək Allaha küfr edib şeytana səcdə etdi.

---

[1] «Səfinətul-bihar», cild 1, səh. 71.

İmanının dərəcələrindən asılı olmayaraq insanın həyatın hər bir anında süquta və zəlalətə uğramaq təhlükəsi ilə qarşılaşması bu şəkildə baş verir.

Həzrət Peyğəmbərimiz (s) bu haqda belə buyurmuşdur: **«Mömin bəndə ruhu bədənindən çıxan anadək aqibətin pisləşməsindən qorxar və Allahın razılığını qazandığına əmin olmaz».**[1]

Bundan əlavə, bir çox hədislərdə bildirilir ki, mömin bəndə digər insanlardan fərqli olaraq daha təhlükəli sınaqlarla və daha çox zəlalətə yönəldici hallarla rastlaşa bilər. İmamlardan birinə öz mücahid bir tələbəsi: - Ey Peyğəmbər övladı, şeytanın bizə qarşı hiylə işlətməsindən narahatsanmı? - deyə sual etdikdə İmam cavabında belə buyurmuşdur: **«Şeytanın sizdən başqalarına qarşı hiylə işlətməsindən narahat olamağa dəyərmi? Artıq o başqalarına (qeyri mömінlərə) qarşı öz işini görmüşdür. (yəni onları artıq tora salmışdır)».**

## TƏHLÜKƏ HARADAN GƏLİR

Maraqlıdır, nə üçün mömin şəxslərin həyatında yolunu azmaq ehtimalı meydana çıxır? Yəqin ki, buna səbəb olan bir sıra amillər vardır. Xüsusi ilə də bu əsrdə yaşayan biz möminlər üçün

Birinci amil. **Tərbiyə və ətraf mühitin təsiri.**

Həqiqətdə cəmiyyətimiz. həmçinin yaşadığımız mühit İslami dəyərləri dərk edib ona riayət etməkdə lazımi səviyyəyə çatmamışdır. Əksər ailələrin sağlam tərbiyə metodları, İslamda təlim-tərbiyə və uşaqların düzgün

---

[1] «Səfinətul-bihar», cild 2, səh. 209.

istiqamətləndirilməsi ilə bağlı təyin olunmuş proqramlar haqqında heç bir anlayış yoxdur. Böyüklərimizin yiyələndikləri zehinlərimizə həkk etdirdikləri mədəniyyət (təlim-tərbiyə) heç də saf və sağlam bir mədəniyyət (təlim-tərbiyə) deyildir. Bu mədəniyyət uydurma, saxtakarlıq və xurafatlarla qarışmışdır.

Həmçinin təsiri altında böyüyüb ərsəyə yetişdiyimiz davranış qaydaları və əxlaq normaları da İslamın buyuruqları ilə tam uyğun olmamaqla yanaşı, əsasən təhriflər və yanlışlıqlardan ibarətdir. İnsan bu kimi mühitdə tərbiyə olunduqda, hətta nəfsini islah etməyə və doğru yola yönəlməyə nail olsa belə, həmin tərbiyənin, və mühitin bəzi təsirləri onun nəfsində qalaraq onu batil yollarla, zəlalət uçurumuna doğru sürükləyər.

İkinci amil: **Dini qanun qaydalarına riayət etməyin sıxıntıları.**

Yaşadığımız maddiyyat əsrində, fəsad dolu belə mühitdə dini prinsip və dəyərlərə riayət etmək mömin bəndənin həyatında çətinlik, müsibət və sıxıntılar mənbəyinə çevrilmişdir.

Sadiq və vəfalı Peyğəmbərimiz (s) doğru buyurmuşdur:

**«Elə bir zaman gələcəkdir ki, həmin zamanda öz dinindən yapışan (dinin qanunlarına riayət edən) şəxs əlində yanar köz tutmuş (insan) kimi olacaqdır».**

Mömin bəndəyə zalımlar, mürtace cəmiyyətdəki cinayətkarlar və hətta öz ailəsi, yaxınları tərəfindən göstərilən təzyiqlər, habelə onun pozğun mühitlə üz-üzə qalması və acı reallığa qarşı mübarizə aparması onu nəfsi baxımdan sıxıntıya salır. Hansı ki, bu sıxıntı onun (nəfsi ilə mübarizədən) geri çəkilməsinə, məğlub olmasına və yaxud da əxlaqının

pisləşməsinə, psixoloji problemlərlə üzləşməsinə səbəb ola bilər.

Üçüncü amil. **Pozğun mühitin təsiri.**

Yaşadığımız mühitə və nəfəs aldığımız havaya diqqət yetirək! Həqiqətən də, insan, adətən öz yaşadığı mühitdən təsirlənir. Belə ki, sağlam, mənəvi çirkablardan uzaq bir mühitdə yaşayan insanın nəfsinin səhifəsi bəyaz və təmiz olar. Lakin bütünlükdə fitnə-fəsad və azdırıcı vasitələrlə zəngin olan mühitdə yaşayan insan zəlalətə və pozğunluğa doğru sürüklənər. İctimai vəziyyət, cəmiyyətdəki hakim ideologiya, geniş yayılmış mədəniyyət, informasiya vasitələri, insana təsir göstərən mühitin tərkib hissələridir. Şübhəsiz ki, bir çox əxlaqsızlıqlar və çirkin təbliğatlar artıq bizim cəmiyyətimizdə də həmin tərkib hissələrinə (ideologiyamıza, mədəniyyətimizə, informasiya vasitələrimizə və s.) gizli şəkildə müdaxilə edərək ayıq, ehtiyyatlı və daxilən (mənəvi baxımdan) möhkəm olmayan insanlara öz mənfi təsirini göstərməkdədir.

Dördüncü və sonuncu amil. **Şeytanın rolu.**

Həqiqətən, mövcud əsrdə mömin bəndə şeytan üçün çox böyük və güclü rəqib sayılır. Lakin həmin şəxsin (mömin) digərlərinin haqq yola yönəldib, şeytanın planlarının alt-üst etməsi və onun yaratmaq istədiyi mühiti bərpa etməyə çalışan İslam təbliğatçısı olduqda isə daha güclü rəqib hesab edilir. Şübhəsiz ki, İslam təbliğatçısı olan mömin şeytanın daim müqavimət göstərdiyi və bütün gücünü sərf etməyə çalışdığı ən təhlükəli cəbhədir. Onun azacıq ehtiyatsızlığa yol verməsindən şeytan məharətlə istifadə etməyə hazırdır. Belə ki, o, (şeytan) mömin bəndənin həyatına adi bir dəlikdən və kiçik bir günah vasitəsilə belə soxulmağa yol tapır. Məhz bu

səbəbdən Həzrət Rəsulullah (s) hədislərinin birində buyurmuşdur:

**«Məhəmmədin canı əlində olana (Allah-təalaya) and olsun ki, İblis üçün bir alim, min abiddən daha təhlükəlidir. Çünki abid özü üçün, alim isə başqalları üçün çalışar».**

Məlum məsələdir ki, dərrakəsiz və dinini dərindən qavramayan min abidi yolundan azdırmaq şeytan üçün çox da çətinlik yaratmır. Digər tərəfdən, onların zəlalətə uğraması özlərindən qeyri-kimsəyə zərər yetirmir. Çünki onların (daim cəmiyyətdən, insanlardan uzaqlaşaraq tənhalıqda ibadətlə məşğul olduqları üçün) digərlərinə təsir göstərmək imkanı yoxdur. Lakin öz dinini tam dərk edən, onun bütün incəliklərini mükəmməl bilən bir mömini yolundan azdırmaq şeytan üçün çox çətin və məşəqqətli işdir. Digər bir tərəfdən isə, mömin bəndə başqalarına təsir göstərməsi, onları özünə cəlb etməsi ilə daim genişlənən və böyüyərək ətrafına əhatə edə bilən bir cəbhədir. Məhz bu səbəbdən şeytan bütün qüvvəsini və diqqətini bu təhlükəli cəbhəyə - təbliğatçı mominə yönəldir. Peyğəmbərlər və İmamlar (ə) tərəfindən buyurulmuş dini mənbələr (hədis və rəvayətlər) isə öz növbəsində bizi qəflətə yol verməkdən çəkindirərək daim ayıq və diqqətli olmağımızın zəruriliyini vurğulayır.

Əmirəl-möminin Əli (ə) buyurmuşdur:

**«Nəfsinin hiylələrindən) qəflətdə olan şəxsi arzular aldadar və onu həsrət bürüyər».**

İmam Sadiq (ə) buyurmuşdur:

**«Əgər təkcə şeytan (insana) düşməndirsə, bəs onda qəflət nə üçündür?»**

İmam (ə) bu kəlamı ilə bildirmək istəyir ki, qəflət də insanı təhlükəyə atan, acı nəticələrlə üz-üzə qoyan bir amildir (Tərcüməçidən).

## ŞEYTANIN HİYLƏLƏRİNDƏN EHTİYATLI OLUN

Bu məsələ ilə bağlı son dərəcə əhəmiyyətli olan bir fikir vardır ki, şeytan mömini doğru yoldan azdırmaq istədikdə, adətən ona aşkar şəkildə və rüsvayedici günahlar işlətməyi təklif etmir. Məsələn, heç zaman o, mömini içki içməyə, livatla[1] məşğul olamağa, yaxud namazı tərk etməyə çağırmır. Çünki bu kimi günahlar mömin üçün açıq-aydın rüsvayçılıq və məğlubiyyət sayılır. Bu səbəbdən məhz qəflətdə və diqqətsiz olduğu anlarda mömini tələyə salmaq üçün ona qarşı münasib bir hiylə işlətmək lazım gəlir.

Əmirəl-möminin Əli (ə) Kumeyl ibn Ziyad adlı səhabəsinə etdiyi tövsiyyəsində belə buyurmuşdur:

**«Onlar (yəni şeytanlar) hər bir insanı mütilik və asilik baxımından öz səviyyəsinə uyğun tərzdə aldatmağı, mənasız işlərə cəlb etməyi, şirnikləndirməyi, lovğalandırmağı və ona vəsvəsə etməyi bacarırlar. Onlar, məhz bunun hesabına insana qalib gəlib ona hakim kəsilirlər(onu təsiri altına salırlar)».**[2]

Bu halda şeytan hansı vasitə ilə insanın qəlbinə yol tapır?

Həqiqətdə o, mömin bəndənin qəlbinə onun öz dininin vasitəsilə yol tapır. Belə ki, ona qarşı plan hazırlayaraq üzərinə din nişanəsi vurur, onun üçün zahiri itaət və ibadətlə

---

[1] Levat, pedarastiya ilə - uşaqbazlıqla məşğul olmağa deyilir (Tərcüməçidən).

[2] «Bəsair və Huda» səh. 62.

bəzədilmiş bir tələ qurur. Mömin isə bir anlıq öz sayıqlığını və iltifatını əldən verməsi nəticəsində şeytanın qurduğu bu tələyə düşüb onun ovuna çevrilir. Qurani-Kərim (şeytansifət insanları) məhz bu əməldən çəkindirilərək buyurulmuşdur:

وَلَا تَلْبِسُوا الْحَقَّ بِالْبَاطِلِ وَتَكْتُمُوا الْحَقَّ وَأَنْتُمْ تَعْلَمُونَ

***«Bilərək haqqa batil (yalan) don geyindirməyin».***[1]

İmam Əli (ə) bu haqda belə buyurmuşdur: **«Əgər batil haqdan ayrılıb seçilsəydi, onu axtaranlardan gizli qalmazdı və haqq da batil donundan çıxıb xilas olsaydı, haqdan üz döndərənlər ondan əl şəkərdilər. Lakin hər brindən bir az götürülüb bir-birinə qarışdırmışdır. Belə olduqda isə şeytan öz dostlarına (ona uyanlara) hakim kəsilir və yalnız əvvəlcədən Allahın nemət verdiyi (yəni rəhm etdiyi) şəxslər (onun hiylələrindən) qurtularlar».**[2]

Seytanın bəzi möminlərin nəfslərində bir çox mühüm dini məsələlərin (kiçidilməsi) hesabına digər (nisbətən az əhəmiyyət daşıyan) dini məsələləri böyüdüb şişirtməsi də bu qəbildəndir. İmam Zeynulabidin (ə) dualarından birində buyurmuşdur: **«(İahi!) Əgər geytan onları (insanları) aldadıb sənin itaətindən yayındırmağa calışmasaydı, heç kim sənə asi çıxmaz və onlara batili haqq kimi göstərməsəydi, kimsə sənin yolundan azmazdı».**[3]

Belə ki, (bəzi möminlər şeytana aldanaraq) ibadət adı ilə - namaz qılıb, dua etməklə məşğul olmaq bəhanəsi ilə Allah yolunda cihad etməyə etinasız yanaşırlar.

---

[1] «Bəqərə» surəsi, ayə 42.
[2] «Nəhcül-bəlağə» 59-ci xütbə.
[3] «Səhifeyi-səccadiyyə», 37-ci dua.

Təqiyyənin [1] vacibliyi ünvanı altında mömin, batil qarşısında boyun əyib ona təslim olmuş bir vəziyyətdə yaşayır. Müctəhidlərdən birinə təqlid etməsini əlində əsas tutaraq o, «əmr be məruf» (yaxşı işlərə əmr etmək) və «nəhy az münkər» (pis işlərdən çəkindirmək) prinsipini tərk edir. Həmçinin, vaxtını, yalnız özünü islah etmək və daxilən (mənəvi baxımdan) yetişdirməyə sərf etdiyini bəhanə gətirərək Allah yolunda işləməkdən boyun qaçırır. Həqiqətən də, şeytan, adətən bu kimi məqamlardan istifadə edib sayıqlığını itirmiş, qəflətdə olan bəzi möminlərə tələ quraraq onların qəlbinə yol tapır.

## DOGRU YOL TƏMİNATI

Mömin şəxsin zəlalətə və əyri yollara düçar olmaq təhlükəsini dəf etmək məqsədilə üz tutduğu zamanət verici amillərə nəzər salaq.

Həmin amillər düşünmə qabiliyyətinin daha da gücləndirilməsi sayıqlığın artırılması və nəfsə qarşı azmkarlıqla mübarizə aparılmasından ibarətdir. Buna nail olmaq üçün isə insanın qarşısında ən gözəl yol hidayət carçıları olan İmamlar (ə) və onların babası Həzrət Peyğəmbərimiz (s)-in göstərişlərindən, nəsihətlərindən faydalanmaqdır. Elə bir göstərişlər ki, nəfsin dərinliklərinə nüfuz edib insana onun daxilində qeyri-sağlam tərbiyənin və pozğun mühitin mənfi təsirlərini açıq-aydın göstərir. Həmçinin elə bir nəsihətlər ki, insanda özünə inam hissi

[1] Təqiyyə, mömin bəndənin zülm və haqsızlıqlarla dolu olan bir cəmiyyətdə özünü, malını və namusunu təhlükədən qorumaq üçün öz həqiqi mövqeyini və əqidəsini gizlətmə.

yaradaraq, onun mənəviyyatını yüksəldib, onu fəsad dünyası və azğınlıq aləmi qarşısında mübariz kimi yetişdirir.

Doğrudan da, bu nəsihətlər insan üçün kainatın və həyatın bir çox həqiqətlərini kəşf etməklə onun öz ətrafına ağıllı və dərin baxışlarla, açıq gözlə baxmasına yardım edir. Bu təsirli öyüd-nəsihətlər geniş qəlbli, xətircam, həmçinin o, Rəbbindən. Rəbbi də ondan razı qalan bir nəfsə malik olan möminə qarşısına çıxan bütün maneələri dəf etmək və bütün çətinliklərlə, böhranlı vəziyyətlərdə mübarizə aparmaq üçün böyük bir psixoloji qüvvə bəxş edir.

Ən nəhayət, bu misilsiz göstərişlər şeytanın bütün planlarını, hiylələrini insanın qarşısında aşkar edərək, onu doğru yolda daha da sayıq və dərrakəli edir. Həqiqətən də bu nəsihətlər olduqca faydalı, möhtəşəm və qiymətsiz bir nəsihətlərdir. Onları bəşəriyyətə təqdim edənlər həyatı dərindən və kamil surətdə dərk edən, insana haqqı və qurtuluş yolunu göstərən, bütün çətinliklərə, təzyiqlərə baxmayaraq doğru yolda mətanətli olmaqda daim ən gözəl nümunə kimi göstərilən rəhbərlər olmuşlar. Bu nəsihətlər sadiq və ixlaslı rəhbərlərimizdən sadir olmuş doğru, səmimi bir nəsihətlər olmaqla, onların qəlblərinin dərinliyindən çıxaraq hər bir sadiq və ixlaslı bəndənin qəlbinin dərinliyində bərqərar olur. Hər bir mömin həyata və həyatda baş verənlərə məhz bu öyüd və nəsihətlərin köməyi ilə baxması, həmçinin bu misilsiz kəlamların onun üçün doğru yolu - nicat yolunu işıqlandıran bir hidayət nuruna çevrilməsi üçün onları öyrənməyə möhtacdır. Bu ibrətamiz nəsihətlərdən bəzi seçmələrə diqqət yetirək.

## ƏZƏMƏTLİ PEYĞƏMBƏRİMİZ MƏHƏMMƏD (S)-İN NƏSİHƏTLƏRİNDƏN

O Həzrət (s) Əbuzər Gəfari adlı səhabəsinə gözəl və əhatəli nəsihət edərək belə buyurmuşdur:

**«Ey Əbuzər, sənə verdiyim öyüd-nəsihətlərə riayət et ki, dünya və axirətdə xoşbəxt olasan».**

**«Ey Əbuzər, beş şeyin (nemətin) qədrini, onların digər beş şey ilə əvəz olunmasından (yəni itirilməsindən) öncə bil: - Gəncliyinin qədrini qocalmazdan, sağlamlığının qədrini xəstələnməzdən, zənginliyinin qədrini yoxsullaşmazdan, asudə vaxtının qədrini işin çıxmazdan və həyatının qədrini ölməzdən əvvəl bil».**

**«Ey Əbuzər, heç vaxt (səhlənkarlıq üzündən) işini sonraya saxlama. Həqiqətən, sən sabahına deyil, bu gününə uyğun tərzdə yaşamalısan. Əgər sabaha çıxsan da bu günün kimi yaşa. (Belə etmiş olsan) sabaha çıxmasan belə, bu gün itirdiklərinə görə peşmanlıq çəkməzsən».**

**«Ey Əbuzər, səhəri qarşılayan çox sayda insanlar vardır ki, onlar həmin günü tamamlaya (axıradək yaşaya) bilmirlər, həmçinin ertəsi günü gözləyən bir çox insanlar vardır ki, (onlar) ona qovuşa bilmirlər».**

**«Ey Əbuzər, ömrünə (vaxtına) dirhəmindən və dinarından daha çox simiclik et (yəni malından, pulundan daha çox vaxtının qədrini bil, vaxtına qənaət et)».**

**«Ey Əbuzər, insanları aldatmaq üçün elm öyrənən şəxs Cənnətin iyindən belə məhrum olar».**

**«Ey Əbuzər, (axirətdə) Cənnət əhlindən olan bir dəstə insan, Cəhənnəm əhlindən olan digər bir dəstənin**

**qarşısına çıxıb onlara deyəcəklər: «Sizin Cəhənnəm oduna girməyinizə nə səbəb oldu? Biz ki, sizin öyrətdiyiniz təlim-tərbiyənin sayəsində Cənnətə daxil olmuşuq?» Onlar isə cavab verəcəklər: «Həqiqətən, biz başqalarını yaxşı işlər görməyə çağırar, özümüz isə onlara riayət etməzdik».**

**«Ey Əbuzər, təqvalı bəndələr (bəşəriyyət üçün), rəhbərlər, müdriklər də (onlara) yol göstərənlərdir. Onlarla (təqvalı və müdrik bəndələrlə) ünsiyyətdə olmaq isə böyümək və kamilləşməkdir. Həqiqətən, mömin bəndə öz günahını böyük bir qaya kimi görər və daim bu qayanın onun üzərinə düşməsindən qorxar (yəni günahını daim ağır bir yük kimi öz üzərində hiss edər). Kafir isə öz günahını burnunun önündən uçan bir milçək kimi görər».**

**«Ey Əbuzər, Allah-Təala hər hansı bir bəndəyə yaxşılıq etmək istədikdə, günahlarını onun gözləri önündə canlandırır, həmçinin günahı onun üçün çətin və ağır edər (yəni ona günahın ağırlığını hiss etdirər). Lakin pislik etmək (yəni ona öz çirkin əməllərinə görə cəza vermək) istədikdə isə günahlarını ona unutdurar».**

**«Ey Əbuzər, günahın kiçikliyini deyil, (onu etməklə) kimə asi çıxdığını düşün».**

## ƏMİR ƏL-MÖMİNİN ƏLİ (Ə)-IN NƏSİHƏTLƏRİNDƏN

Kumeyl ibn Ziyada öz dolğun nəsihətlərilə İmam Əmirəl-möminin Əli ibn Əbu Talib (ə) aşağıdakıları buyurmuşdur.

**«Ey Kumeyl, həqiqətən Allah-təala Həzrət Peyğəmbər (s)-ə, o Həzrət də mənə ədəb və əxlaq öyrətmişdir. Mən isə möminlərə ədəb və əxlaq öyrədirəm».**

«Ey Kumeyl, sən etdiyin hər bir hərəkətində (atdığın hər bir addımında) elmə və idraka möhtacsan».

«Ey Kumeyl, para üzüm giləsi və ya bir xurma dənəsi verməklə də olsa, heç vaxt dilənçini əliboş qaytarma, həqiqətən, sədəqə Allah dərgahında (günü-gündən) böyüyüb artar (yəni savabı daha da çoxalar)».

«Ey Kumeyl, yaxşı olar ki, sirrini kimsə bilməsin».

«Ey Kumeyl, mömin möminin güzgüsüdür. Çünki mömin möminə baxaraq (ondan ibrət götürüb) öz ehtiyaclarını ödəyər və vəziyyətini (xüsusiyyətlərini, əməllərini və s.) gözəlləşdirər».

«Ey Kumeyl, şeytan sənin qəlbinə vəsvəsə etdikdə: «Azğaın şeytandan qüdrətli Allaha, insanların və cinlərin şərindən insanların Məbuduna pənah aparıram» - desən, İblisin və onunla birgə olan şeytanların təzyiqindən, hətta onlar (şeytanlar) hamısı İblis kimi (təhlükəli, hiyləgər) olsalar belə özünü qorumuş olarsan».

«Ey Kumeyl, onlar (yəni şeytanlar) hər bir insanı mütilik və asilik baxımından öz səviyyəsinə uyğun tərzdə aldatmağı, mənasız işlərə cəlb etməyi, lovğalandırmağı və ona vəsvəsə etməyi bacarırlar. Onlar məhz bunun hesabına insana qalib gəlib ona hakim kəsilirlər (onu təsir altına salarlar)».

«Ey Kumeyl, sənə onlardan (şeytanlardan) qəddar düşmən və onlardan çox zərər yetirən tapılmaz. Onların arzusu budur ki, sabah (yəni Qiyamət günü) Cəhənnəm azabına atıldıqları zaman onlarla birgə olasan».

«Ey Kumeyl, sadəcə namaz qılmaq, oruc tutmaq və sədəqə vermək (insan üçün) şərəf sayılmaz. Əsil şərəf odur ki, namaz təmiz qəlblə, Allahın razı qaldığı əməllərlə, saf,

**səmimi itaətkarlıqla onun (namazın) əzəmətinin, vüqarının qorunub saxlanılması ilə birgə qılınsın».**[1]

## İMAM HƏSƏN İBN ƏLİ (Ə)-IN NƏSİHƏTLƏRİNDƏN

O Həzrətin ömrünün son günlərində (vəfatından öncə xəstə olduğu ərəfədə) Cünada ibn Əby Üməyyə ona: Ey, Peyğəmbər övladı, mənə nəsihət et – deyə müraciət etdikdə, İmam (ə) buyurdu:

**«Bəli, (Ey Cünada) səfərə çıxmağa ölüm səfərinə) hazırlaş, əcəlin çatmazdan əvvəl azuqəni topla və bil ki, sən dünyanın (dünya malının) ardınca getdiyin halda ölüm də, sənin ardınca gəlir. Gələcək gününün fikrini hazırda olduğun günündən əvvəl çəkmə».**

**«Bil ki, dünyanın halalında sorğu-sual, haramunda cəza və şübhəli (halal və ya haram olması bilinməyən) şeylərdə isə töhmət vardır (yəni Axirətdə insan dünyanın halal nemətlərindən istifadə etdiyinə görə sorğu-sual haramlardan istifadə etdiyinə görə cəza və şübhəli şeylərdən istifadə etdiyinə görə isə töhmət, məzəmmət gözləyir».**

**«Dünyan (dünyanla bağlı işlərin) üçün elə calış ki, sanki əbədi yaşayacaqsan. Axirətin üçün isə elə çalış ki sanki sabah öləcəksən (yəni dünya işlərində tələsməyə bilərsən. Lakin Axirətlə bağlı işlərini heç zaman təxirə salmamalısan)».**

**«Əgər qohum-əqrəbanın köməyi olmadan izzət və ehtiram, həmçinin hökmdar olmadan əzəmət və nüfuz**

---

[1] «Töhəf əl uqul» səh. 119-123, 2-ci çap.

**qazanmaq istəyirsənsə, onda Allah-Təalaya asi qorumaq zillətindən qurtulub Ona itaət etmək şərəfinə nail ol».**[1]

## İMAM MÜHƏMMƏD BAQİR (Ə)-IN NƏSİHƏTLƏRİNDƏN

İmam Baqir (ə) yaxın tələbələrindən biri Cabir ibn Yəzid əl-Cöfiyə nəsihət edərək buyurmuşdur:

**«Sənə beş xüsusiyyəti tövsiyə edirəm: Sənə zülm edilsə də, zülm etmə və sənə xəyanət edilsə də, xəyanət etmə. Təkzib olunduqda (dediklərini inkar etsələr) qəzəblənmə. Tərif olunduqda fərəhlənmə və məzəmmət olunduqda isə təşvişə düşmə. Haqqında deyilənlər barədə düşün. Əgər bu deyilənləri (mənfi xüsusiyyətləri) özündə görsən, onda (bil ki,) haqqa qəzəblənməklə, böyük və əzəmətli Allahın yanında alçalmağın sənin üçün insanların nəzərindən düşməkdən daha ağır olar. Əgər haqqında deyilənlər səndə olmasa, onda cismini əziyyətə salmadan savab qazanmış olarsan».**

**«Bil ki, sən, yalnız o zaman bizim dostumuz sayılarsan ki, yaşadığın ölkənin əhli hamılıqla sənə: - pis insansan, - dedikdə, bu səni kədərləndirməsin, həmçinin sənə: - yaxşı insansan, - söylədikdə də bu səni fərəhləndirməsin. Hər halda yaxşısı budur ki, özünü Allahın kitabı ilə üz-üzə qoy. Onun göstərdiyi yolu gedib, çəkindirdiklərindən çəkinib, təşviq etdiyi işlərə rəğbət bəsləyib və qorxutduğu şeylərdən qorxduğunu hiss etdiyin halda isə (bu yolda) möhkəm, sabitqədəm ol və fərəhlən. Bu halda haqqında**

---

[1] «Qadətuna keyfə nərifuhum» cild 5, səh. 325-326.

**deyilənlər də sənə ziyan etməz. Yox əgər Qurana müxalifsənsə, onda səni öyündürən nədir?»**

**«Həqiqətən, mömin nəfsinin öz şəhvani istəklərinə qalib gəlməsi üçün daim ona qarşı mübarizə aparar. Bəzən o, nəfsinin xətalarını düzəldərək Allah eşqinə onun şəhvani istəklərinə müxalif çıxar, bəzən isə nəfsi ona üstün gələr və o, havayi-nəfsinin ardınca gedər. Allah-təala onu ucaltdıqda ruhlanar, xətalarını bağışladıqda (Allahın əzabını) xatırlayaraq tövbə etməyə üz tutar və qorxuya düşər. Qorxusu artıqca isə düşüncə və biliyi də artar. Odur ki, Allah-təala buyurmuşdur:**

إِنَّ الَّذِينَ اتَّقَوْا إِذَا مَسَّهُمْ طَائِفٌ مِنَ الشَّيْطَانِ تَذَكَّرُوا فَإِذَا هُمْ مُبْصِرُونَ

***«Allahdan qorxanlara şeytandan bir vəsvəsə (zərər) toxunduğu zaman onlar (Allahın əzabını, lütfünü və mərhəmətini) xatırlayıb düşünər və dərhal (gözləri açılıb) görən olarlar».***[1]

## İMAM CƏFƏR SADİQ (Ə)-IN NƏSİHƏTLƏRİNDƏN

İmam Sadiq (ə) yaxın səhabələrindən biri Abdullah ibn Cündəb əl-Bəcli al-Kufiyə bir sıra mühüm məsələlər və dəyərli həqiqətlər haqda bəzi nəsihətlər etmişdir. Bu nəsihətlərdən seçilmiş aşağıdakı iqtibaslara nəzər salaq:

**«Ey ibn Cündəb, gecə-gündüz öz əməlini gözlərinin önünə gətirərək nəfsi ilə hesabat çəkmək hər bir müsəlmanın borcudur. Belə ki, Qiyamət günü rüsvay olmasın deyə yaxşı əməlini gördükdə onun artırılmasını,**

[1] «Töhəf əl uqul» səh. 206-207; «Əraf» surəsi, ayə 201.

**pis əməlini gördükdə isə onun bağışlanılmasını (Allah-təaladan) diləməlidir. Xoş o bəndənin halına ki, Axirəti istəyir və onu qazanmağa çalışır. Həmçinin xoş o kəsin halına ki, onu aldadıcı arzular (haqq yoldan) sapındırmır».**

Sonra o Həzrət (ə) buyurdu: **«Allahın mərhəməti olsun o insanlara ki, (hidayət yoluna nur saçan) çıraq və məşəl olmuş və camaatı öz əməlləri ilə bacardıqları qədər bizə doğru səsləmişlər (yəni camaatda bizə qarşı inam və məhəbbət hissi yaratmışlar)».**

**«Ey ibn Cündəb, möminlər yalnız o kəslərdir ki, Allahdan qorxar və onlara bəxş olunmuş hidayətin itirilməsindən ehtiyatlanarlar (narahat olarlar). Onlar Allahı onun nemətlərini yad etdikdə (Onun heybət və əzəmətindən) qorxub titrəyər, Allahın ayələri oxunduğu zaman onun (bu ayələrdə) zahir etdiyi qüdrətinin təsirindən (nüfuzundan) imanları artar və onlar ancaq öz Rəbbinə təvəkkül edərlər».**

**«Ey ibn Cündəb, öz əməlinə arxalanan həlak olar və Allahın rəhmətinə arxayın olub günah etməyə cürət edən də heç vaxt nicat tapmaz».**

Dedim: **- Kimlər nicat tapacaqdır?**

Buyurdu: **«Ümidlə qorxu arasında olanlar (Allahın rəhmətinə ümid baslayib eyni zamanda Onun əzabından qorxanlar). Onların qəlbləri (yırtıcı bir) quşun caynağına düşmüş kimi savaba can atar və əzabdan qorxar».**

**«Ey ibn Cündəb, hər kim Allahın onu (Axirətdə) huri-eynlə (Cənnət huriləri ilə) evləndirməsini və başına nurdan tac qoymasını istəyirsə, onda öz mömin qardaşını sevindirsin».**

**«Ey ibn Cündəb, gecə yatmağını, gündüz isə danışmağını azalt. Çünki bədəndə (bədən üzvləri arasında) gözlə dildən az şükr edən üzv yoxdur. Süleyman (ə)-ın anası ona bu xüsusda belə demişdir: «Ey oğul, çox yatmaqdan çəkin, həqiqətən bu iş (yəni çox yatmaq) insanların öz əməllərinə möhtac qalacaqları gün səni də möhtac qoyar».**

**«Ey ibn Cündəb, həqiqətən, şeytan tələ qurub (insanları) bunun vasitəsilə ovlamaqdadır. Odur ki, onun qurduğu tələlərdən və hiylələrdən özünüzü qoruyun!»**

**«Ey ibn Cündəb, canını (Cəhənnəm odundan) xilas etməkdən qeyri şeyin fikrini çəkən (yəni dünyanı düşünən) şəxsin nəzərində əzəmətli Allah, dəyərsiz, əhəmiyyətsiz olar və (bununla da) o, Rəbbindən çox cüzi bir mənfəət əldə edər (yəni dünyanı üstün tutmuş olar).**

**Öz qardaşını aldadan, təhqir edən və ona qarşı kin bəsləyən şəxs üçün Allah-təala Cəhənnəm odunu məskən qərar verər. Möminə həsəd aparan (paxıllıq edən) şəxsin isə qəlbində olan iman, duzun suda əriyib həll olması kimi əriyib aradan gedər».**

«Ey ibn Cündəb, öz (mömin) qardaşının ehtiyacını ödəməyə (hansısa bir işini düzəltməyə) gedən şəxs Allah yanında Səfa və Mərva (təpələri) arasında yüyürən, onun ehtiyacını ödəyən isə Bədr və Uhud döyüşləri zamanı Allah yolunda öz qanına boyanmış şəxs kimidir. Allah-təala hər hansı bir ümmətə yalnız onlar öz yoxsul qardaşlarının hüquqlarına hörmətsizliklə yanaşdıqları zaman əzab göndərər».

**«Ey ibn Cündəb, itaət olunmaları vacib buyurulanların (Peyğəmbərlər, İmamlar və valideynlərin)**

**üzünə ağ olmaqdan başqa bütün günahlar bağışlanar və riyakarlıqla edilənlərdən başqa bütün yaxşılıqlar qəbul olunar».**

**«Ey ibn Cündəb, əgər Allahın evində (dərgahında) Ona yaxın olmaq və Firdous Cənnətində yaşamaq istəyirsənsə, onda dünyanı dəyərsiz, əhəmiyyətsiz bir şey hesab et və sabahın üçün (dünya malından) heç nə yığıb saxlama. Bil ki, sənə qalan, məhz (axirətin üçün) göndərdiklərin (yəni, xeyirxah və savab əmələr), ziyan gətirən isə təxirə saldıqların (yəni təxirə salıb, sonra edə bilmədiyin savab və lazımlı işlər) olacaqdır.**

**Özünü hər növ bəlaya - istər övladla, istər mal-dövlətlə, istərsə də fəlakətlə bağlı bəlalara səbr etməyə öyrət. Həqiqətən, Allah verdiyi nemətini əlindən almaq və bəxş etdiyi hədiyyəsini geri götürməklə sənin səbrini və şükr etməyini yoxlayar (imtahan edər).**

**Allaha (yəni onun rəhmətinə) elə ümid bəslə ki, bu ümid səni, Ona asi çıxmağa ruhlandırmasın, həmçinin Allahdan elə qorx ki, bu qorxu səni Onun rəhmətindən məyus etməsin.**

**Cahilin sözünə, tərifinə aldansan, təkəbbürlük və lovğalıq etməyə, öz əməlinlə öyünməyə başlayarsan. Həqiqətən, əməllərin ən yaxşısı ibadət və təvazökarlıqdır».**

**«Ey ibn Cündəb, camaatın səni təriflməsi üçün onların gözü qarşısında sədəqə vermə. Həqiqətən, belə etsən (bu işdə qazandığın) savabı itirmiş olarsan. Əksinə, (elə et ki,) sağ əlinlə verdikdə sol əlin bilməsin. Yolunda sirr olaraq sədəqə verdiyin kimsə (yəni, Allah-təala), səni elə bir gündə açıq-aşkar insanların gözü qarşısında mükafatlandıracaqdır ki, həmin gün insanların sənin**

**sədəqəndən xəbərdar olmamaları sənə zərər gətirməyəcəkdir».**

**«Ey ibn Cündəb, xeyir və şər bütünlüklə sənin qarşındadır. Sən (həqiqi) xeyirlə (həqiqi) şəri yalnız, Axirətdən (yəni Qiyamət günündən) sonra görəcəksən. Çünki böyük və əzəmətli Allah bütün xeyirləri Cənnətdə, bütün şərləri isə Cəhənnəmdə qərar vermişdir. Onlar ikisi də əbədi qalacaqlar. Allahın hidayət bəxş etdiyi, imanla kəramətləndirdiyi, doğru yolu öyrətdiyi, nemətlərini tanıması üçün əql verdiyi, dini və dünyəvi işlərini qaydaya salması üçün elm və hikmət əta etdiyi şəxsin borcudur ki, daim Allaha şükr edib, Ona qarşı nankor olmasın, Onu xatırlayıb heç zaman unutmasın və Ona itaət edərək əmrlərindən çıxmasın.**

**Yalnız vaqiə baş verdiyi (yəni insanların dirilib qəbrlərdən qalxdığı), Qiyamət qopduğu, böyük bəla gəldiyi, yenilməz qüdrət sahibi (Allah) hökm etmək üçün (haqq) tərəziləri qurduğu və məxluqatı sorğu-suala çəkdiyi zaman, sən kimin yüksək məqam və kəramət sahibi olduğunu, həmçinin kimin həsrət və peşmançılıq çəkdiyini tam əminliklə biləcəksən. Odur ki, bu gün dünyada, Axirətdə sənə uğur gətirəcək əməlləri yerinə yetir».**

**«Ey ibn Cündəb, böyük və əzəmətli Allah bəzi vəhylərində buyurmuşdur: Mən, yalnız əzəmətim qarşısında baş əyən, Mənə xatir şəhvətindən çəkinən, bütün gününü Məni xatırlayıb zikr etməklə keçirən, yaratdıqlarım qarşısında öyünməyən, aca yemək, paltarsıza paltar verən, müsibətə düçar olanın halına yanan və kimsəsiz qəribə sığınacaq verən şəxsin namazını**

**qəbul edirəm. Bu səbəbdən (bütün bu gözəl** əməllərinə görə) də, onun nuru günəştək şəfəq saçar. Ona zülmətdə nur, cəhalət halında (biliksizliyə uğradıqda) isə ağıl, dərrakə verirəm. Öz əzəmətimlə onu himayə edir və mələklərimlə qoruyuram. Məni çağırır (yəni dua edir) cavab verirəm və Məndən (ehtiyaclarını) diləyir, əta edirəm. Mənim nəzərimdə belə bir bəndə, meyvələri misilsiz və dəyişməz olan (solmayan) Firdous Cənnətləri kimidir...»[1]

## İMAM MUSEYİ-KAZIM (Ə)-IN NƏSİHƏTLƏRİNDƏN

İmam Museyi-Kazım (ə)-in tanınmış şagirdi Hişam ibn Hikəm Bağdadiyə etdiyi bu nəsihətlər elmin ən qiymətli incilərini özündə ehtiva edir, insana an üstün dünya görüşü və dəyərli göstərişlər verir. Bu nəsihətlərdən bəzi hissələrə nəzər salaq:

**«Ey Hisam, hər bir şeyin əlaməti vardır, ağıllı şəxsin əlaməti isə təfəkkürdür».**

**«Ey Hişam, əlində qoz dənəsi olduğu halda və sən onun qoz olduğunu bildikdə camaat əlindəkinin mirvari dənəsi olduğunu desə, bunun sənə heç bir faydası olmaz. Həmçinin əlində mirvari dənəsi olduğu halda və sən onun mirvari olduğunu bildikdə camaat əlindəkinin qoz dənəsi olduğunu desə, bunun sənə heç bir zərəri olmaz».**

**«Ey Hisam, Allahın insanlar üzərində (Qiyamət günü onların bəhanələrinin qarşısını almaq üçün) iki dəlili vardır: Zahiri dəlili və batini dəlil. Zahiri dəlil elçilər, peyğəmbərlər və imamlar, batini dəlil isə əqllərdir».**

---

[1] «Töhəf əl uqul» səh. 221-226.

**«Ey Hişam, ağıllının az əməli ikiqat qəbul olunar. Həvayi-nəfsinə uyanın və nadan adamın isə çox əməli qəbul olunmaz».**

**«Ey Hişam, həqiqətən, ağıllı adam hikmət əldə etmək naminə dünyanın azı ilə (cüzi dünya malı ilə) qane olar. Lakin dünyanı qazanmaq üçün hikmətin azlığına (yəni hikməti itirmək bahasına dünyanı qazanmağa) razı olmaz. Məhz bu səbəbdən onların (ağıllı insanların) ticarəti uğurlu, mənfəətli olar».**

**«Ey Hişam, əgər sənə kifayət edən, ehtiyaclarını ödəyən (miqdarda dünya malı) səni qane edirsə, onda ən az dünya malı da sənə yetər. Ehtiyaclarını ödəyən (miqdarda dünya malı) səni qane etmirsə, onda dünyada heç nə sənə kifayət etməz».**

**«Ey Hisam, aqil insanlar dünyanın hətta lazımsız, əbəs işlərini belə tərk etmişlər, o ki, qaldı günahlar ola. Çünki dünyanı tərk etmək fəzilət, günahları tərk etmək isə vacibdir».**

**«Ey Hisam, böyük və əzəmətli Allah əməli saleh insanların belə söylədiklərini (dua etdiklərini) hekayət etmişdir: - Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra ürəklərimizə şəkk-sübhə (azğınlıq, əyrilik) salma! Bizə öz tərəfindən bir rəhmət bəxş et! Çünki sən həqiqətən, (bəndələrinə mərhəmət, nemət) bəxş edənsən. Onlar bu sözləri qəlblərin (haqq yoldan) sapınmağa, cəhalət və azgınlığa qayıtmağa meylli olduğunu bildikdə söyləmişlər».**

**«Ey Hisam, insanlı olmayanın dini, əqli olmayanın isə insanlıq olmaz. Həqiqətən, (Allah yanında) ən hörmətli insan dünyanı özü üçün təhlükə hesab etməyəndir.**

**Cisminizə gəlincə isə (bilin ki,) onların qiyməti yalnız Cənnətdir. Bu səbəbdən onları Cənnətdən başqa heç nəyə satmayın».**

**«Ey Hisam, insanların şərəfini (namusunu) ləkələməkdən çəkinən şəxsin Qiyamət günü Allah-Təala günahlarını, xətalarını bağışlayar. İnsanlara qarşı qəzəbini boğan şəxs isə Allah-Təala Qiyamət günü qəzəblənməz».**

**«Ey Hisam, aqil şəxs öz mənafeyinə (marağına, istəklərinə) xatir olsa belə yalan danışmaz».**

**«Ey Hisam, ikiüzlü və riyakar bəndə ən pis bəndədir. Qardaşını gördükdə tərifləyər arxasınca isə qeybətini edər, ona bir şey bəxş olunduqda həsəd aparar (paxıllıq edər), bəlaya düçar olduqda isə onu darda qoyar».**

**«Ey Hisam, həqiqətən, dünya ilan kimidir. Onun üstü yumşaqdır, qarnında isə öldürücü zəhər var. Ağıllı insanlar ondan ehtiyatlanar, uşaqlar isə ona əl uzadarlar».**

**«Ey Hisam, dünya dəniz suyuna bənzər. Susuz insan ondan içdikcə susuzluğu daha da artar və nəticədə bu su onu öldürər».**

**«Ey Hişam, heç zaman təkəbbürlük etmə. Həqiqətən, qəlbində zərrə qədər təkəbbür olan şəxs Cənnətə daxil olmaz. Böyüklük yalnız Allaha məxsusdur. Hər kim Allahın qarşısında böyüklük edərsə Allah-Təala onu üzü üstə Cəhənnəm oduna atar».**

**«Ey Hişam, Peyğəmbər (s) buyurub: - Möminin çox susduğunu gördükdə ona yaxınlaşın, həqiqətən, o, sizə hikmət söyləyər. Mömin az danışıb çox iş görən, münafiq isə çox danışıb az iş görən olar».**

**«Ey Hisam, təkəbbürlük etməkdən və elminlə öyünməkdən çəkinməsən Allah-təalanın nifrətini qazanarsan. Onun nifrətindən sonra isə nə dünyan sənə fayda verər, nə də axirətin. Dünyada sahibi olmadığı evdə yaşayan və oranı nə vaxt tərk edəcəyini gözləyən şəxs kimi ol!»**

**«Ey Hişam, din əhli ilə ünsiyyətdə olmaq dünya və axirətin şərəfi, nəsihət verən aqil insanla məsləhətləşmək isə uğur, bərəkət, kamillik və Allahın lütfüdür. Aqil şəxs sənə bir şeyi məsləhət gördükdə onun məsləhətindən çıxma. Həqiqətən, bu iş sənin məzəmmət olunmağınla nəticələnər. Qarşına iki iş çıxdıqda, hansının daha xeyirli və doğru olduğunu bilməsən, onlardan hansı həvayi-nəfsinə daha uyğundursa onu tərk et. Çünki ən doğru iş həvayi-nəfsinə müxalif olandır».**

**«Ey Hişam, dünyanı sevənin qəlbindən Axirət xofu gedər. Elm əta olunmuş şəxsin dünyaya məhəbbəti nə qədər artarsa, bir o qədər Allahdan uzaqlaşar və Allahın da ona qarşı qəzəbi artar».**

# MÜDƏRİCAT

Müqəddimə ........................................................................ 4
**BİRİNCİ FƏSİL** ................................................................ 8
Təhlükə mənbəyi ................................................................. 8
Nəfslə əqlin fərqi ................................................................. 9
Əqlin rolu nədən ibarətdir .................................................. 11
Əql necə əsirə çevrilir ......................................................... 12
Yunan məntiqinin nöqsanı .................................................. 14
Nəfsə diqqət yetirməyin zəruriliyi ........................................ 16
Nəfslə bağlı üzərimizdə olan məsuliyyət ............................... 18
Səhv düşüncə .................................................................... 19
**İKİNCİ FƏSİL** ................................................................ 21
İslam məntiqinə əsasən nəfsin təhlükəsi ................................ 21
Nəfs pis islərə vadar edəndir ............................................... 21
Ən böyük cihad nəfslə edilən cihaddır .................................. 26
Nəfs və onun insana mütəmadi təsiri ..................................... 33
Nəfsin düçar olduğu bəzi xəstəliklər ..................................... 34
Hər şeydən əvvəl nəfsin islahıdır .......................................... 38
Nəfs ən təhlükəli düşməndir ................................................ 42
Nəfslə hesabat çəkmək və onu izləmək .................................. 43
Nəfsi azgınlığın nəticələri ................................................... 47
**ÜÇÜNCÜ FƏSİL** ............................................................. 51
Süquta uğramaq təhlükəsi .................................................. 51
Təhlükə haradan gəlir ......................................................... 55
Şeytanın hiylələrindən ehtiyatlı olun .................................... 59
Dogru yol təminatı ............................................................. 61
Əzəmətli peyğəmbərimiz Məhəmməd (s)-in nəsihətlərindən ....... 63
Əmir əl-möminin Əli (ə)-in nəsihətlərindən ............................. 64
İmam Həsən ibn Əli (ə)-in nəsihətlərindən .............................. 66
İmam Mühəmməd Baqir (ə)-in nəsihətlərindən .......................... 67
İmam Cəfər Sadiq (ə)-in nəsihətlərindən ................................. 68
İmam Museyi-Kazim (ə)-in nəsihətlərindən .............................. 73

**Redaktor: Emin Salman oğlu**
**Korrektor: Fərhad Mədətov**

Yığılmağa verilib: 12.06.03. Qeydiyyat tarixi: 11.07.03.
Qeydiyyat nömrəsı: DK 452/d. Çapa imzalanıb: 01.09.03.
Kağız formatı: 60x84 $^{1}/_{16}$, şərti çap vərəqi: 5, Tiraj: 300
Ofset çapı, kıtab «Qələm» poliqrafiya müəssisəsində yığılmış, səhifələnmiş və çap olunmuşdur.
Ünvan: Hüsü Hacıyev küçəsi, 1.
Tel: (50) 352 52 06, 352 52 55

**Kitabın çap və s. hüquqları qorunur**